6 aprel 2022 №26 (1899) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Münasibətlərin daha yüksək səviyyəyə çatması xalqlarımızın maraqlarına uyğundur

Aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olub.

Bu münasibətlə Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Məktubda vurğulanır ki, bu il mühüm nailiyyətlə – Rusiya və Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə əlamətdardır: "Əminəm ki, ikitərəfli münasibətlərin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması xalqlarımızın təməl maraqlarına uyğun gəlir".

səh. 2

## Qarabağ müharibəsində ölkəmizdəki yəhudi icmasının üzvləri də şücaət göstərib

Azərbaycanda yaşayan yəhudi icması üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etməsi və şücaət göstərməsi ölkəmizdə ehtiramla qeyd olunur.

Prezident İlham Əliyev bu fikri aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edərkən söyləyib.

Dövlət başçısı əlaqələrimizin inkişafında həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışıb, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğulayıb.

səh. 2

## Mədəniyyət Nazirliyində Avropa Şurasının Baş katibi ilə görüş

Aprelin 5-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ölkəmizdə səfərdə olan Avropa Şurasının (AŞ) Baş katibi Mariya Peyçinoviç Burić ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlıq və həyata keçiriləcək birgə layihələrin perspektivlərindən söhbət açılıb.

səh. 2

## İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya Azərbaycanla əməkdaşlığa hazırdır

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya dünyanın müxtəlif ölkələrində, o cümlədən Balkanlarda genişmiqyaslı fəaliyyət göstərib və itkin düşmüş hesab olunan minlərlə insanın taleyini müəyyən edərək onların ailəsinə məlumat verilməsində öz rolunu oynayıb. Təşkilat itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsində Azərbaycanla da yaxından əməkdaşlıq etməyə hazırdır.

Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bomberger bu barədə aprelin 4-də Prezident İlham Əliyev ilə görüşdə bildirib.

DNT analiz nümunələrinin toplanması və laborator analizlər vasitəsilə insanların şəxsiyyətinin müəyyən edilməsinin vacibliyini bildirən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, kütləvi məzarlıqlarda birgə qazıntıların aparılması, yerli mütəxəssislərin peşəkarlığının artırılması kimi işlərə öz töhfəsini verməyə hazır olduğunu deyib.

Baş direktor Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə əməkdaşlığa dair niyyət protokolu imzaladıqdan sonra praktiki işə başlayacaqlarını diqqətə çatdırıb.




## "Zəfərə gedən yol"

Aprelin 5-də Azərbaycan İstiqlal Muzeyində "Zəfərə gedən yol" adlı sərgi açılıb. Sərgi Vətən müharibəsində qazandığımız və bu gün də ruhu içində yaşadığımız möhtəşəm Zəfərin başlanğıcı olan 2016-cı ilin Aprel döyüşlərinin altıncı ildönümünə həsr edilib.

səh. 3

# Şuşa hər fəsli ilə gözəldir

## Müsabiqə qala-şəhərimizi dünya fotoqraflarının obyektivində göstərəcək




Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Şuşa dörd fəsildə" ("Four seasons of Shusha") adlı beynəlxalq fotoqrafiya müsabiqəsi elan olunub.

Aprelin 5-də Milli İncəsənət Muzeyində müsabiqəyə həsr olunmuş mətbuat konfransı keçirildi.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə tədbiri açaraq müsabiqə haqqında məlumat verdi. Bildirdi ki, "Şuşa dörd fəsildə" müsabiqəsi "Şuşa İli" münasibətilə təşkil olunur.

Mədəniyyət Nazirliyinin "Şuşa İli" ilə bağlı il ərzində bir sıra layihələr keçirəcəyini vurğulayan şöbə müdiri onlardan bir qisminin artıq reallaşdığını diqqətə çatdırdı: "Nazirlər Kabineti tərəfindən "Şuşa İli" çərçivəsində təsdiq olunmuş Tədbirlər planına əsasən, il ərzində Xarıbülbül festivalı, Vaqif poeziya günləri, Natəvan ədəbi festivalı və Şuşada ədəbi məclislər keçiriləcək. Həmçinin TÜRKSOY tərəfindən Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi qala-şəhərimizin qədim və zəngin mədəni irsinin təbliğinə də öz töhfəsini verəcək".

davamı səh. 2-də

# Nizami Gəncəviyə məktublar

Ötən il "Nizami Gəncəvi İli" çərçivəsində elan olunmuş layihələrdən biri "Nizami Gəncəviyə məktub" beynəlxalq esse müsabiqəsi idi. Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirlikləri tərəfindən keçirilən müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi keçirildi.

Aprelin 4-də Beynəlxalq Muğam Mərkəzində gerçəkləşən mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, ötən il "Nizami İli" çərçivəsində ölkəmizdə və xaricdə çoxsaylı layihələr reallaşıb. Nizami Gəncəvi Beynəlxalq Forumu, İşıq Festivalı və s. tədbirlər təşkil edilib, eyni zamanda VII Bakı Beynəlxalq Kitab Sərgisi Nizami Gəncəvinin 880 illiyinə həsr olunub. UNESCO və TÜRKSOY-da Nizami Gəncəviyə həsr olunan sərgilər və simpoziumlar təşkil edilib.




Vurğulandı ki, bu layihələrin hər biri Nizaminin Azərbaycan ədəbiyyatının nümayəndəsi olduğunu sübut edən və təbliğinə töhfə verən fəaliyyətlər kimi mühüm əhəmiyyətə malikdir: "Biz çox şadıq ki, ötən ili Nizami Gəncəvi misraları, fikirləri ilə başa vurduq. Dünyada Nizamiyə qarşı iddialara cavabımız ondan ibarətdir ki, Nizami Gəncəvi o xalq , o cəmiyyətə məxsusdur ki, onun mirasını dəyərləndirir və adını əbədiləşdirir. "Nizami İli"ndə silsilə tədbirlərin davamı olaraq biz beynəlxalq esse müsabiqəsi elan etdik".

davamı səh. 3-də

# "UNESCO-nun digər qurumlardan nümunə götürəcəyinə inanırıq"

Xəbər verdiyimiz kimi, 30 mart – 13 aprel tarixində Parisdə UNESCO İcraiyyə Şurasının 214-cü sessiyası keçirilir.

Sessiya çərçivəsində ölkəmizin bu qurumdakı daimi nümayəndəsi Elman Abdullayev üzv dövlətlərin geniş dəstəyi ilə UNESCO-nun bu mühüm orqanına – İcraiyyə Şurasına seçilən Azərbaycan Respublikasının milli bəyanatını təqdim edib.

E.Abdullayev bildirib ki, İcraiyyə Şurasının bu iclası Ukraynada və onun ətrafında vəziyyətin ciddi şəkildə pisləşməsi fonunda beynəlxalq ictimaiyyət üçün təlatümlü vaxtlarda keçirilir: "Azərbaycan sülh yolu ilə həll istiqamətində səylərin heləə də mübarizəni dayandıracaq nəticə verməyinə görə dərin təəssüf hissini bildirir. Mülki itkilərin sayının artması xüsusilə narahatedicidir. Biz bir daha mülki şəxslərin və mülki infrastrukturun, o cümlədən mədəni irsin və təhsil müəssisələrinin müdafiəsi üçün beynəlxalq humanitar hüququ ciddi riayət edilməsinin zəruriliyini vurğulayırıq".




"Azərbaycan 30 ilə yaxın Ermənistanın silahlı təcavüzünə məruz qaldı. Bu illər ərzində ağır hərbi, eləcə də insanlığa qarşı cinayətlər törədildi, silahlı münaqişə zamanı mədəni irsin qorunmasına dair beynəlxalq hüquq açıq-aşkar kobud şəkildə pozuldu. Azərbaycanın bir vaxtlar zəngin mədəni və təbii irsə malik çiçəklənən əraziləri yerlə yeksan edilib. Bütün bu illər ərzində Ermənistan hökuməti həm 30 il işğal altında saxladığı ərazilərdə, həm də Ermənistanın özündə Azərbaycanın mədəni irsinin məhv edilməsi, talan edilməsi və mənimsənilməsi istiqamətində sistemli siyasət həyata keçirib. Ermənistan silahlı qüvvələrinin geri çəkilməsi zamanı XIII əsrə aid Xudavəng monastırının zəngləri, xaçları, məşhur freskaları və qədim əlyazmaları, eləcə də Azıx mağaralarından və Şahbulaq qalasında olan qiymətli artefaktlar qanunsuz olaraq Ermənistana aparılıb", – deyə E.Abdullayev əlavə edib.

davamı səh. 2-də

# "Muzeyi peşəkardan öyrənək"

Mədəniyyət Nazirliyi əsrlərlə yaşı olan muzey eksponatlarının nəsillərdən nəsillərə ötürülməsi üçün muzey işinin düzgün təşkili və eksponatların mühafizə qaydasına riayət edilməsi, həmçinin dünya muzeylərinin təcrübəsinin region muzeylərində tətbiq edilməsi ilə əlaqədar "Muzeyi peşəkardan öyrənək" adlı layihəyə start verib.

Layihənin əsas məqsədi məhz regionlardakı muzeylərin və əməkdaşlarının fəaliyyətini aktivləşdirmək, müasir çağırışlara cavab verən muzey mühitini formalaşdırmaqdır.

Regionlarda fəaliyyət göstərən muzeylərin daha da təkmilləşdirilməsi, muzey əməkdaşlarının bilik və bacarıqlarının artırılması xüsusilə əhəmiyyət kəsb edir.

Layihə çərçivəsində Mədəniyyət Nazirliyinin regional idarələri (Gəncə, Lənkəran, Sumqayıt, Ağdaş, Ağcabədi, Ağstafa, Bərdə, Biləsuvar, Xaçmaz, İsmayıllı, Kürdəmir, Masallı, Sabirabad, Şəki, Şəmkir) üzrə fəaliyyət göstərən muzey və Heydər Əliyev mərkəzlərinin əməkdaşlarına Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova və muzey eksponatlarının qorunması və qeydiyyatı üzrə direktor müavini, baş mühafizi Mira Məmmədxanova, Azərbaycan Milli İncəsənət Muzeyinin elmi işlər üzrə direktor müavini Xədicə Əsədova, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova, Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli və muzeyin fond işləri üzrə direktor müavini Aida Axundova kimi mütəxəssislər tərəfindən 3 gün müddətində "muzey sahəsində müasir çağırışlar", "fond və mühafizə işi", "dünya muzeyləri" mövzuları üzrə təlim-seminar-müzakirə keçiriləcək.

Daha sonra iştirakçı muzeylər təlimçilər tərəfindən onlara təqdim edilmiş mövzu üzrə öz muzeylərində həyata keçirəcəkləri layihənin 1 həftə müddətində təqdimatını hazırlayacaq. Sonda hər region üzrə muzey və Heydər Əliyev mərkəzləri tərəfindən hazırlanmış təqdimatlara baxılacaq və qiymətləndiriləcək. Təqdim edilən layihənin həyata keçirilməsi Mədəniyyət Nazirliyi tərəfindən məqsədəuyğun hesab olunduğu təqdirdə layihənin reallaşdırılması üçün dəstək göstəriləcək.

## Xalq məhəbbəti qazanan muğam ustadı

Bu ilin fevralında dünyasını dəyişən görkəmli muğam ustadı, Xalq artisti, professor Əlibaba Məmmədov milli ifaçılıq sənətinin inkişafına mühüm töhfələr verib, yeni xanəndələr nəsli yetişdirib, eyni zamanda bəstələdiyi mahnı və təsniflərlə musiqi tariximizdə silinməz iz qoyub.

Beynəlxalq Muğam Mərkəzində unudulmaz xanəndənin xatirəsinə həsr olunmuş gecə keçirildi.

BMM-in təşkilatçılığı və Xan Şuşinski Fondunun dəstəyi ilə reallaşan gecədə qonaqlar ilk olaraq böyük ekranda mərhum xanəndənin ifasının lent yazısını izlədilər.

Bildirildi ki, XX əsrin 50-ci illərində sənət fəaliyyətinə başlayan Əlibaba Məmmədov sənətkarlığı ilə xalqın böyük məhəbbətini qazanıb.

səh. 5

## Natəvanın 190 illiyinə həsr olunmuş bilik yarışı



səh. 3

## Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi Şəkidə konsert və ustad dərsi təşkil edib

səh. 5



## Köhnə nömrələrə təzə "Sehrbaz"lıq

səh. 5

№26 (1899)
6 aprel 2022
www.medeniyyet.az



# Qarabağ müharibəsində ölkəmizdəki yəhudi icmasının üzvləri də şücaət göstərib

## "İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib"

Azərbaycanda yaşayan yəhudi icması üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etməsi və şücaət göstərməsi ölkəmizdə ehtiramla qeyd olunur.

Prezident İlham Əliyev bu fikri aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edərkən söyləyib.

Prezident əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışıb, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğulayıb.

Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirən İlham Əliyev İsraildə Azərbaycanın ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və turizm mərkəzinin açılmasının önəmini diqqətə çatdırıb. Prezident həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib.

İqtisadi sahədə əlaqələrə toxunan dövlət başçısı Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu deyib. Prezident Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, qeyd edib ki, İsrail şirkətləri də ölkəmizdə bu sahəyə maraq göstərir və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensial var. Dövlət başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirib.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə edib.

Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb.

İsrailin turizm naziri Yoel Razvozov ilk növbədə Ramazan ayının başlanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Qonaq uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirib. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini deyib və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğulayıb.

Bu il Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin də qeyd olunduğunu diqqətə çatdıran nazir deyib: "İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu, çox önəmlidir...". O, ümidvar olduğunu bildirib ki, Ermənistanla Azərbaycan arasında danışıqlar uğurlu olacaq və regionda sabitliyin möhkəmlənməsi işinə xidmət edəcək.

Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə iştirak etməkdə maraqlı olduqlarını deyib.

# Münasibətlərin daha yüksək səviyyəyə çatması xalqlarımızın maraqlarına uyğundur

Xəbər verdiyimiz kimi, aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olub.

Bu münasibətlə Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

"Dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əlaqələrinin inkişafı üçün ötən onilliklər ərzində bir çox işlərin reallaşmasına nail olunub. Ticari-iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə konstruktiv siyasi dialoq, səmərəli əməkdaşlıq genişlənir. Keçən il və inişil bağlanmış üçtərəfli müqavilələrə əsasən, Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üzərində birlikdə işləyirik", – deyə məktubda qeyd olunur.

Məktubda vurğulanır ki, bu il mühüm nailiyyətlə – Rusiya və Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə əlamətdardır: "Əminəm ki, ikitərəfli münasibətlərin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması xalqlarımızın təməl maraqlarına uyğun gəlir".

Prezident İlham Əliyev də əlamətdar yubiley münasibətilə Rusiyanın dövlət başçısına təbrik məktubu ünvanlayıb.

Məktubda qeyd olunur ki, ötən 30 il ərzində xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətləri qarşılıqlı hörmət və etimad, bir-birinin mənafelərinin nəzərə alınması prinsipləri əsasında strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla inkişaf edib və möhkəmlənib.

Məktubda dərin tarixi köklərlə, mənəvi və mədəni yaxınlıqla bağlı olan xalqlarımız arasında dostluğun, mehriban qonşuluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsində mədəni-humanitar münasibətlərin rolu xüsusi qeyd olunur: "Mədəniyyət və təhsil sahələrində əməkdaşlıq, Azərbaycanda rus dilinin və rus mədəniyyətinin dövlət səviyyəsində hərtərəfli dəstəklənməsi, Azərbaycanın məktəblərində və ali təhsil müəssisələrində rus dilində təhsil bizim tərəfdaşlığımızın humanitar gündəliyinə verdiyimiz əhəmiyyəti əyani şəkildə təsdiq edir".

Prezident Azərbaycanla Rusiya Federasiyasının subyektləri arasında fəal qarşılıqlı əlaqənin də əhəmiyyətini diqqətə çatdırıb. "Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da ikitərəfli əməkdaşlığın aktual məsələlərini reallaşdıra, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin xalqlarımızın və ölkələrimizin mənafeyi naminə möhkəmlənməsi üçün yeni imkanlar aça biləcəyik", – deyə məktubda bildirilir.

# Nazirin birinci müavini bəstəkar Oqtay Rəcəbovla görüşüb



Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev tanınmış bəstəkar və pedaqoq, Əməkdar incəsənət xadimi, Əməkdar müəllim, Prezident təqaüdçüsü Oqtay Rəcəbovla görüşüb.

Oqtay Rəcəbovu doğum günü (5 aprel) münasibətilə təbrik edən Elnur Əliyev bəstəkarın Azərbaycanın musiqi mədəniyyətində xüsusi xidmətlərinin olduğunu vurğulayıb.

Oqtay Rəcəbovun Azərbaycan milli mədəniyyətinin inkişafında pedaqoq kimi də layiqli payının olduğunu deyən Elnur Əliyev onun operalar, musiqili komediyalar, film musiqisi, elmi məqalələr, kitab və monoqrafiyaları ilə yanaşı, "Xocalı" simfoniyası, ümummilli liderin xatirəsinə həsr olunmuş "Heydər" oratoriyası, dillər əzbəri olan bir çox mahnıları əhatə edən zəngin yaradıcılığını xüsusi qeyd edib.

Nazirin birinci müavini sənətkara cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

# Tağıyevə həsr olunmuş inşa müsabiqəsinin qalibləri mükafatlandırılıb

Bakı Kitab Mərkəzi tərəfindən yeniyetmələr arasında elan olunmuş "Hacı Zeynalabdin Tağıyev. Tariximizdə silinməz iz" adlı inşa müsabiqəsinə yekun vurulub və qaliblər mükafatlandırılıb.

Müsabiqənin nəticələrinə əsasən, Cəlilabad rayon Göytəpə şəhər 1 nömrəli tam orta məktəbinin 10-cu sinif şagirdi İlahə Ağayeva 1-ci, Bakı Avropa Liseyinin 2-ci sinif şagirdi Rauf Abdullayev 2-ci, Binəqədi rayon Namiq Babayev adına 144 nömrəli tam orta məktəbinin 11-ci sinif şagirdi Məhəmməd Əliyev 3-cü yerə layiq görülüb.

Qaliblərə Bakı Kitab Mərkəzi adından diplom və hədiyyə kartları, qalib olmayan iştirakçılara isə təşəkkürnamə və kitablar təqdim edilib.

# Avropa Şurası Azərbaycanın mədəniyyət sahəsində təşəbbüslərini yüksək qiymətləndirir

Aprelin 5-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ölkəmizdə səfərdə olan Avropa Şurasının (AŞ) Baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.



Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlıq, həyata keçiriləcək birgə layihələrin perspektivlərindən söhbət açılıb.

Nazir Anar Kərimov Avropa Şurası ilə ölkəmiz arasında birgə fəaliyyətin əhəmiyyətini xüsusi qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" təşəbbüsü üzrə 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qarşılıqlı uğurlu əməkdaşlığı bir daha vurğulayıb.

Ölkəmizin 2021-ci ildə irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası haqqında da söz açan Anar Kərimov bildirib ki, bu kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Nazir bu qlobal layihədə Avropa Şurasını da tərəfdaş təşkilat kimi görmək istədiyini dilə gətirib.

Qəbula görə təşəkkürünü bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın mədəniyyət sahəsində həyata keçirilən təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib, ölkəmiz tərəfindən irəli sürülən qlobal layihələrə Avropa Şurasının dəstəyini ifadə edib. Baş katib Avropa Şurası və Azərbaycan arasında qəbul olunması nəzərdə tutulan yeni Fəaliyyət Planının mədəniyyət sahəsində də gələcək əməkdaşlığa dair öz töhfəsini verəcəyinə əminliyini qeyd edib.

Görüş qarşılıqlı maraq doğuran layihələr ətrafında fikir mübadiləsi ilə davam edib.

# Şuşa hər fəsli ilə gözəldir

əvvəli səh. 1-də

Məryəm Qafarzadə nazirliyin həyata keçirdiyi "Danışır Şuşa!", "Şuşa mədəniyyətinin inciləri" layihələri haqqında da fikirlərini bölüşdü.

Nazirliyin Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva çıxış edərək layihə haqqında geniş məlumat təqdim etdi. Diqqətə çatdırdı ki, layihədə dünyanın ən məşhur fotoqrafları – Almaniyadan Hannes Becker, Türkiyədən Hüseyin Taşkın, Finlandiyadan Tiina İtkonen və İsveçrədən Reto Guntli iştirak edəcək: "Layihənin kuratoru Angelo Bucarelli İtaliyanın məşhur rəssam və fotoqrafıdır. Layihə çərçivəsində yerli gənc fotoqraflar üçün ustad dərsləri də nəzərdə tutulub. Seçilən gənc fotoqraflar dəvət edilən 4 əcnəbi fotoqrafla birlikdə Şuşada çəkilişlərdə iştirak və təcrübə keçmək hüququ qazanacaq. İlk olaraq yaz aylarında Türkiyədən olan fotoqrafın gəlişi nəzərdə tutulub. Fotoqrafların hər birinə öncədən Azərbaycan və Şuşanın tarixi, mədəniyyəti haqqında məlumat verilib. Layihənin keçirilməsində əsas məqsəd Şuşa şəhərinin daha geniş miqyasda təbliğ edilməsidir".




Layihənin kuratoru Angelo Bucarelli Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinə belə bir təşəbbüsə görə təşəkkür etdi. Bildirdi ki, layihədə fotoqraflar Şuşaya müxtəlif aspektlərdən yanaşaraq öz düşüncə və baxışlarını ortaya qoyacaqlar: "Dünyanın 4 fotoqrafının 4 fəsildə seçilməsi də təsadüfi deyil. Bu layihədə biz müxtəlif kontentlərdə yaşayan, düşünən sənət adamlarının Şuşaya baxışını ortaya qoymaq niyyətindəyik".

İtalyan fotoqraf qeyd etdi ki, Qarabağı dünyada təbliğ etmək istəyi təsadüfi yaranmayıb. İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi bütün dünyanı təsirləndirib: "Biz müasir dünyada yaşadığımız üçün şəkillər vasitəsilə kontenti beynəlxalq aləmə çatdırmağı daha məqsədəuyğun hesab edirik. Çünki dünyada baş verənlərə fotolar üzərindən baxmaq daha maraqlıdır. Biz Şuşanı 4 fəsildə təqdim etməyi qərara aldıq. Ümumilikdə 120 foto nəzərdə tutulub. Şəkillər toplandıqdan sonra kataloq halında dərc ediləcək, layihənin məxsusi veb-saytı yaradılacaq. Daha sonra fotolar müxtəlif ölkələrdə sərgilənəcək. Azərbaycanın Mədəniyyət Nazirliyi bu şəkillərdən istədiyi formada istifadə edə biləcək".

Mətbuat konfransının sonunda KİV nümayəndələrini maraqlandıran suallar cavablandırıldı.

**Lalə Azəri**

# "UNESCO-nun digər qurumlardan nümunə götürəcəyinə inanırıq"

## Təşkilatın İcraiyyə Şurasının sessiyasında Azərbaycanın milli bəyanatı təqdim olunub

əvvəli səh. 1-də

Diqqətə çatdırılıb ki, Şuşa Xalça Muzeyindən qanunsuz olaraq 160 qiymətli xalça çıxarılıb və onlardan 71-i Ermənistanın paytaxtı Yerevandakı muzeydə nümayiş etdirilib. Sadalanan bütün bu faktlar UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının İkinci Protokolu üzrə Komitəsinə ölkəmizin təqdim etdiyi hesabatlarda əksini tapıb.

Vurğulanıb ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış mina və digər partlayıcı maddələr həmin ərazilərdəki mədəni irs üçün ciddi təhlükə yaradır, bərpa işlərinə mane olur, mülki əhalinin geri qayıtmasını ləngidir. Mina partlayışları nəticəsində çox sayda mülki şəxs, eləcə də jurnalistlər həlak olub və yaralanıb.

Qeyd edilib ki, silahlı münaqişə başa çatdıqdan sonra Azərbaycan münaqişədən sonrakı reabilitasiya, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoyub: "Ölkəmiz işğaldan azad edilmiş ərazilərdə mənşəyindən asılı olmayaraq bütün mədəniyyət və dini abidələrin lazımi qaydada qoruyub saxlamaq, restavrasiya etmək və istifadəyə vermək əzmindədir. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə davam edən genişmiqyaslı reabilitasiya və yenidənqurma səyləri ilə bağlı beynəlxalq ictimaiyyət, o cümlədən BMT-nin müvafiq ixtisaslaşmış qurumları və təsisatları ilə əməkdaşlığı davam etdirir. Bu istiqamətdə UNESCO-nun töhfəsini də səbirsizliklə gözləyir və təşkilatın BMT-nin digər aidiyyəti qurumları və təsisatlarından nümunə götürəcəyinə inanırıq".

"Azərbaycan hökuməti ölkədəki mədəni sərvətlərin vəziyyətini qiymətləndirmək üçün UNESCO tərəfindən müstəqil və qərəzsiz texniki missiyaya ev sahibliyi etməkdə maraqlıdır. Ölkəmiz heç bir gecikmə olmadan bu istiqamətdə işi davam etməyə hazırdır və ümid edir ki, hər hansı əlavə şərtlərə görə bundan sonra heç bir maneə olmayacaq. Bu kontekstdə Azərbaycanın yeddi ay əvvəl – 2021-ci il avqustun 19-da təqdim etdiyi təkliflərə təşkilatın reaksiyasını sürətləndirməsi zəruridir", – deyə daimi nümayəndə bildirib.

Vurğulayıb ki, UNESCO-nun belə bir missiyası ona ev sahibliyi edən üzv dövlət kimi Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə tam uyğun olaraq həyata keçirilməlidir. UNESCO-nun missiyasını Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə göndərməklə yanaşı, təşkilatın Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi ilə məşğul olması da təcili zərurətdir. Vətəndaş cəmiyyəti, QHT nümayəndələri və müxtəlif təşkilatlar bu genişmiqyaslı dağıntının sənədləşdirilməsi üçün UNESCO-dan Ermənistana missiya göndərməyi xahiş ediblər.

Azərbaycanın UNESCO-nun bir sıra layihə və təşəbbüslərinə dəstək verdiyini deyən E.Abdullayev bu sırada ölkəmizin Dünya İrs Mərkəzinə maliyyə yardımını, 2018-ci ildə Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə UNESCO-nun Mədəniyyətlərarası dialoq üzrə elektron Platformasının fəaliyyətə başlamasını və digər addımları qeyd edib.

Daimi nümayəndə çıxışında onu da diqqətə çatdırıb ki, bu ilin iyununda Azərbaycanın UNESCO-ya üzvlüyünün 30 illiyi tamam olacaq: "Bu qısa müddət ərzində Azərbaycan ikinci dəfə UNESCO-nun İcraiyyə Şurasının üzvü olmaqdan şərəf duyur. UNESCO-nun məsul üzvü kimi Azərbaycan dünyanın müxtəlif yerlərində təşkilatın nəcib missiyasını dəstəkləməyə sadiqdir, dəyərlərimizin və prinsiplərimizin təbliğində onun güclü tərəfdaşı olmağa davam edəcəkdir".

# Nizami Gəncəviyə məktublar

## Beynəlxalq esse müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirildi






əvvəli səh. 1-də

Nazir bildirdi ki, ötən ilin noyabrında başlanan müsabiqəyə esselərin qəbulu dekabrın 30-da başa çatmışdı. Ümumilikdə müsabiqəyə 19 ölkədən (Azərbaycan, Türkiyə, Pakistan, Özbəkistan, Ukrayna, Polşa, Bolqarıstan, Rusiya, Küveyt, Misir, Vyetnam, Cənubi Koreya və s.) 4 dildə (Azərbaycan, türk, ingilis və rus dilləri) 288 esse təqdim edilib. 24 əsər müsabiqə qaydalarına cavab vermədiyi üçün qəbul olunmayıb. Müsabiqədə obyektivliyi və şəffaflığı təmin etmək üçün 264 esse və onların müəllifləri xüsusi ştrixlə şifrələnərək qiymətləndirmə komissiyasına təqdim edilib. Komissiyanın 4 üzvü tərəfindən esselərin bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılıb.

Qiymətləndirmə komissiyasının üzvü, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Elnarə Akimova bildirdi ki, Mədəniyyət Nazirliyi dövlətçilik ideologiyasının strateji xətlərindən birini həyata keçirən mühüm instansiyalardandır: "Ötən il nazirliyin təşkil etdiyi vətənpərvərlik mövzusunda şeir müsabiqəsində ekspert kimi iştirakım zamanı bir daha əmin oldum ki, bu müsabiqələrin iki yöndə faydası var: həm humanitar düşüncənin inkişafına yol açır və həm də milli məfkurə və milli mənəviyyatın bütövləşməsinə xidmət edir".

Esse müsabiqəsi barədə danışan E.Akimova qeyd etdi ki, təqdim edilən esselərin əksəriyyətində "Vikipedia" məlumatları yer alıb və daha çox elmi yanaşma özünü göstərib. Halbuki müsabiqədə əsas şərt şairə yaradıcı münasibətin öndə olması idi: "Eyni zamanda beynəlxalq aləmdə, dünyanın gözündə Nizami necə görünür sualına cavab axtarmağa çalışdıq. Hesab edirəm ki, seçilən 3 esse bu tələblərə yüksək səviyyədə cavab verdi...".

Yazıçı-publisist, komissiyanın üzvü Günel Anarqızı qalibləri təbrik etdi, müsabiqənin əhəmiyyətini vurğuladı. Dedi ki, dünyada Nizami Gəncəviyə müxtəlif münasibət var: "Bizim ilk vəzifəmiz dahi Nizaminin məhz Azərbaycan şairi olduğunu sübut etməkdir. Müsabiqənin beynəlxalq status daşıması Nizamiyə müxtəlif baxışları ortaya gətirdi".

Qiymətləndirmə komissiyasının digər üzvü, fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub qeyd etdi ki, Prezident İlham Əliyev tərəfindən illərin ölkəmizdə poeziya, şeir sənət üzərində qeyd edilməsi gözəl ənənədir. Əlamətdar illər ədəbiyyatımızın, mədəniyyətimizin dünyada təbliğinə geniş imkanlar yaradır.

Sonra 3-cü yerin qalibi, Rusiyada yaşayan tələbə Mülayim Hümmətova və 2-ci yerə layiq görülmüş Küveytdən olan iştirakçı Tariq Yousefin videoformatla göndərdikləri müraciətləri səsləndirildi. Hər iki iştirakçı müsabiqənin təşkilatçılarına təşəkkürünü ifadə etdilər, Nizami Gəncəvi dühasından söz açdılar. Tariq Yousef Azərbaycan poeziyası və dahi mütəfəkkir Nizaminin tanıdılması istiqamətində reallaşan layihədə iştirakından məmnunluğunu da xüsusi vurğuladı.

Tədbirin aparıcısı, qiraət ustası Xəzər Süleymanlı qaliblərin esselərindən parçalar səsləndirdikdən sonra müəlliflərə diplomları təqdim edildi.

III yerin qalibi Mülayim Hümmətovanın ("Nizami Gəncəviyə məktub", Rusiya) diplomu valideyninə, II yerin qalibi Tariq Yousefin ("A Letter to Nizami Ganjavi", Küveyt) diplomu isə Küveytin ölkəmizdəki səfirliyinin əməkdaşına təqdim olundu.

Birinci yerin qalibi, Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç yazdığı "Büyük kahraman: Nizami Gencevi" essesi haqqında öz düşüncələrini bölüşdü. O, Azərbaycan ədəbiyyatına və mədəniyyətinə sevgisindən danışdı. Dedi ki, Türk dünyasının iki mütəfəkkiri Yunus Əmrə və Nizami Gəncəvi dühası əsrlərlə insanların fəlsəfi düşüncələrinə təsir edib: "Türkiyədə Azərbaycan ədəbiyyatı və dili üzrə ali təhsil alarkən illər sonra Azərbaycanın havasını udacağımı, suyunu içəcəyimi, çörəyini yeyəcəyimi ağlıma gətirməzdim. Müstəqil Azərbaycanın insanları ilə bir arada yaşamaq mənim üçün böyük şərəfdir. Qəhrəmanların, mütəfəkkirlərin yaşı olmur, onlar əbədi yaşayırlar. Bu gün xalqlar mədəni, multikultural və sülh şəraitində yaşayırlarsa, bu həqiqətləri onlara Nizami kimi dahi mütəfəkkirləri ötürüb".

Müsabiqədə qalib olmağından məmnunluğunu ifadə edən Selçuk Karakılıç "Nizami İli" çərçivəsində rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi layihələrdən də söz açdı.

Sonra nazir Anar Kərimov Selçuk Karakılıça müsabiqənin diplomunu təqdim etdi.

Tədbirin bədii hissəsində Xalq artistləri Teyyub Aslanov, Samir Cəfərov və Əməkdar artist İlham Nəzərov Nizaminin sözlərinə yazılmış muğam və romansları təqdim etdilər. Bütün ifalar alqışlarla qarşılandı.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən, müsabiqənin birinci yer üzrə qalibinə 2021 dollar, ikinci yer üzrə qalibə 1141 dollar və üçüncü yerin sahibinə isə 880 dollar pul mükafatı nəzərdə tutulub.

**Lalə Azəri**

# Mədəniyyət naziri TÜRKSOY-un və TDT-nin baş katibləri ilə görüşüb

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov 30-31 mart tarixlərində Türkiyənin Bursa şəhərində "Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin rəsmi açılış mərasimində və TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının fövqəladə iclasında iştirak edib. Anar Kərimov səfər çərçivəsində Bursada bir sıra görüşlər də keçirib.



Nazir martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yeni Baş katibi vəzifəsinə seçilən Sultanbay Raev ilə görüşüb.

Görüş zamanı TÜRSKOY-un türk xalqları arasında mədəni və dostluq münasibətlərinin möhkəmlənməsində rolundan, eləcə də Azərbaycanın bu sahədə gördüyü işlərdən bəhs olunub.

Mədəniyyət naziri Sultanbay Raevə yeni vəzifəsində uğurlar arzulayaraq onun Türk dünyasının mədəni tərəqqisi üçün əlindən gələni edəcəyinə əminliyini bildirib.

Sultanbay Raev də nazirə təşəkkür edərək Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması münasibətilə səmimi təbrikini dilə gətirib. O, Şuşanın bərpası və yenidən qurulmasının öneminden də danışaraq bildirib ki, bunu etməklə biz Şuşada türk mənəviyyatını da dirçəldərik.

***

Nazir Anar Kərimov Bursada Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyevlə də görüşüb.

Görüş zamanı türk xalqlarını birləşdirən təşkilatların önəmli fəaliyyətindən, birgə əməkdaşlığın, tədbir və layihələrin dostluğumuz, qardaşlığımız naminə vacibliyindən söz açılıb.

Həmçinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa barədə müzakirələr aparılıb. Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin tarixi əhəmiyyəti vurğulanıb.

# Bursada Şuşa Günləri keçirilsin

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu təşəbbüs irəli sürüb

Türk əməkdaşlıq təşkilatları olaraq bir-birimizin yanında olmağa çalışırıq və hər zaman bir-birimizə dəstək verməyə hazırıq. İndi yenidən gözəl Bursadayıq. Osmanlı İmperatorluğunun ilk paytaxtı Bursanın hər daşında bu qədim və qüdrətli dövlətin möhürünü hiss edirik. Eyni zamanda müasir Bursanın mədəni və sosial inkişafı bizi çox sevindirir. Hesab edirəm ki, 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" ünvanı türk memarlığının sənət əsərləriylə, Zeki Mürenin, Muzeyyen Senarın mahnılarıyla, İbrahim Balabanın rəsmləriylə, adət-ənənələriylə, mətbəxi və digər mədəniyyət nümunələri ilə zəngin Bursanın bənzərsizliyini ortaya çıxaracaq və burada Türk dünyasının mədəni birliyinə həsr olunmuş bir çox tədbirlər keçiriləcək.




Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bu fikirləri TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının martın 31-də Bursada keçirilən fövqəladə iclasında çıxışı zamanı söyləyib.

Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun gənc təşkilat olmasına baxmayaraq, türk xalqlarının mədəni irsinin gələcək nəsillərə ötürülməsi və beynəlxalq səviyyədə tanıdılması istiqamətində fəaliyyətini də diqqətə çatdırıb.

Fondun prezidenti 2022-ci ilin Azərbaycanda "Şuşa İli" olduğunu vurğulayaraq, Şuşa şəhərinin TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsini də tarixi qərar adlandırıb. Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından bu il Bursada Şuşa Günlərinin keçirilməsini də təklif edib: "Təklif edirik ki, "Şuşa İli" ərəfəsində bu il Şuşa Günləri Bursada da keçirilsin. İnanırıq ki, insanlar təşkil olunacaq sərgilərdə, konsertlərdə və digər tədbirlərdə iştirak etməklə Şuşanın və ümumilikdə Qarabağın tarixi, ədəbiyyatı, musiqisi, incəsənəti, eləcə də otuz ilə yaxın işğala məruz qalan yaralı abidələrin taleyi ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Biz bunu öz üzərimizə götürməyə hazırıq".

# Azərbaycan-Rusiya diplomatik münasibətlərinin 30 illiyinə həsr olunmuş konsert

Aprelin 4-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi Bakıdakı Rus Evi ilə birlikdə konsert təşkil edib.

Konsert Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunub.

Tədbir hər iki dövlətin himnlərinin səsləndirilməsi ilə başlayıb.

Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov çıxış edərək ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə səmərəli əməkdaşlığın olduğunu vurğulayıb.



Azərbaycan xarici işlər nazirinin müavini Fariz Rzayev çıxışında diqqətə çatdırıb ki, iki ölkə arasında münasibətlər dərin tarixi köklərə malikdir. O, mədəniyyət sahəsinin ölkələrimiz arasında əlaqələrin inkişafında prioritet sahələrdən biri olduğunu qeyd edib.

Sonra Xalq artisti, bədii rəhbər və baş dirijor Fəxrəddin Kərimovun rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri konsert proqramını açıb.

Proqramda solistlər – Əməkdar artistlər Aleksey Miltıx (violonçel), Fəridə Məmmədova (soprano), İlham Nəzərov (kontrtenor), beynəlxalq müsabiqələr laureatı Ümidə Abbasova (skripka) və Cəlal Kərimovun (bariton) ifasında Pyotr Çaykovskinin "Noktürn", "Rus rəqsi", Oqtay Zülfüqarovun "Muğam və rəqs", Fikrət Əmirovun "Sevgi rəqsi", Georgi Sviridovun "Çovğun", Müslüm Maqomayevin "Azərbaycan" və digər əsərlər səsləndirilib.

# "Tək inci"

## Xurşidbanu Natəvanın 190 illiyi ilə bağlı bilik yarışı

Aprelin 4-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının "Açıq dərs – açıq fikir" layihəsi çərçivəsində paytaxtın Nizami rayonundakı Milli Qəhrəman Yuri Kovalyov adına 229 nömrəli tam orta məktəbdə "Tək inci" adlı bilik yarışması keçirildi.

Layihənin məqsədi gənc nəslə milli mədəni irsə qayğı və mənəvi dəyərlərə ehtiram hissinin aşılanması, Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustadlarının həyat və yaradıcılığının tanıdılmasıdır.

Görkəmli şairə Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyinə həsr olunmuş tədbirdə Milli Məclisin deputatları Ceyhun Məmmədov, Könül Nurullayeva, Respublika Uşaq Kitabxanasının əməkdaşları, təhsil ocağının kollektivi, şəhid ailələri və digər qonaqlar iştirak edirdi.

Məktəbin direktoru Vüsalə Məmmədova və Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərovanın giriş sözlərindən sonra "Missiya" internet televiziyasının redaktoru Lamiyə Rövşənqızı tədbir haqqında məlumat verdi. Bildirdi ki, Qarabağın işğaldan azad olunmasından sonra belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu gün Qarabağla, Şuşa ilə bağlı bütün tarixi şəxsiyyətlərin, o cümlədən Xurşidbanu Natəvanın ruhu şaddır.

Sonra məktəblilərin ifasında kompozisiya nümayiş etdirildi. Şagirdlər Qarabağ xanlığının qurucusu Pənahəli xanın, Şuşa zəfərinin simvolu olan Xarıbülbülün, vaxtilə Xurşidbanu Natəvanla görüşmüş fransız yazıçısı Aleksandr Dümanın obrazlarını canlandırdılar.



Xan qızı Natəvanın poeziyasına çəkilmiş rəsmlər qarşısında "Qərənfil", "Bənövşə", "Könlüm" və s. qəzəlləri səsləndirildi. Həmçinin qonaqlara Qarabağ bölgəsinə məxsus mətbəx nümunələri təqdim olundu.

Vətən müharibəsi şəhidi, həm də ifası ilə yaddaşlarda iz qoyan Xudayar Yusifzadənin anası Radə Qurbanova və Milli Qəhrəman Yuri Kovalyovun qızı Regina Kovalyova çıxışlarında tədbirin önəmini qeyd etdilər.

İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesindən bir parça nümayiş olunduqdan sonra bilik yarışı başladı. Məktəbin yuxarı sinif şagirdləri arasında keçirilən yarışmada Əli Mirzoyev I, Çinarə Hüseynova II, Ayşə Bodurova III yerlərə layiq görüldülər.

Daha sonra Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova, millət vəkilləri Ceyhun Məmmədov, Könül Nurullayeva, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı, institutun Yeni dövr Azərbaycan dili və ədəbiyyat şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor İslam Qəribli, M.Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru Raqub Kərimov və başqaları çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildirdilər.

Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova bilik yarışının iştirakçılarına diplom təqdim etdi. Sonda xatirə şəkilləri çəkdirildi.

**N.Məmmədli**

# "Zəfərə gedən yol"

Aprelin 5-də Azərbaycan İstiqlal Muzeyində "Zəfərə gedən yol" adlı sərgi açılıb. Sərgi Vətən müharibəsində qazandığımız və bu gün də ruhu içində yaşadığımız möhtəşəm Zəfərin başlanğıcı olan 2016-cı ilin Aprel döyüşlərinin altıncı ildönümünə həsr edilib.



Sərgidə Aprel döyüşlərinin şəhidləri – Milli Qəhrəman mayor Samid İmanov, polkovnik-leytenant Rauf Orucov, baş leytenant Elnur İsgəndərov, gizir Orxan Müstəcəbov, Pənəli Teymurov, Elimdar Səfərov, Şahin Cavadzadə, kiçik gizir Seymur Baxışov, əsgər Fəraim Novruzov, Fəxrəddin Qurbanlı, Əbdülməcid Axundov və Müşfiq Orucovun həyat və döyüş yollarını əks etdirən şəxsi əşyalar, sənədlər və fotoşəkillər – muzeyin fondlarında saxlanılan 200-dən çox eksponat nümayiş olunur.

Sərginin açılışından öncə çıxış edənlər bildiriblər ki, 2016-cı ilin Aprel döyüşləri, daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun və xalqının qəhrəmanlığını dünyaya sübut etdi.

Diqqətə çatdırılıb ki, ötən ilin oktyabrından etibarən Azərbaycan İstiqlal Muzeyinin, eləcə də yeni yaradılacaq Zəfər Muzeyinin fondunun zənginləşdirilməsi məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində10 tədbir-sərgi keçirilib. Aprel döyüşlərinin 6-cı ildönümünə həsr olunmuş "Zəfərə gedən yol" adlı tədbir-sərgi də bu layihənin davamıdır.

Sərgi aprelin 12-dək davam edəcək.

№26 (1899)
6 aprel 2022
www.medeniyyet.az

# Aprel döyüşləri – tariximizin şanlı səhifəsi

Azərbaycanın müasir tarixinin şanlı səhifələrindən olan 2016-cı ilin Aprel döyüşlərindən 6 il ötür. Həmin döyüşlərdə Azərbaycan Ordusu hissələrinin işğalçı Ermənistan qüvvələrinin təmas xəttində törətdiyi təxribata cavab olaraq düşmənə vurduğu ağır zərbə qarşıdakı böyük Zəfərin – 2020-ci ilin Vətən müharibəsində tarixi qalibiyyətin müjdəçisi idi.

Aprel döyüşlərinin ildönümü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində bir sıra tədbirlər təşkil edilib.



Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Aprel qəhrəmanları" adlı tədbir keçirilib. Tədbirdə Masallı şəhər 6 saylı tam orta məktəbin şagirdləri muzeyin ekspozisiya zalında şəhid övladlarına həsr edilən guşə ilə tanış olublar.

Cəlilabad rayon Günəşli və Gülməmmədli kənd mədəniyyət evlərində "Aprel döyüşləri – Qələbənin ilk cığırı" adlı tədbirdə altı il əvvəl əldə edilmiş qalibiyyətin 44 günlük Vətən müharibəsində qazanılmış şanlı tarixi Zəfər üçün böyük zəmin yaratdığı qeyd olunub.

Xaçmaz RMİ Quba rayon MKS-nin Alpan kənd kitabxana filialında da Aprel döyüşləri ilə əlaqədar tədbir təşkil edilib. Çıxışlarda "Dördgünlük müharibə"nin tarixinə nəzər salınıb.

Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzinin kollektivi Aprel döyüşlərinin 6-cı ildönümü ilə əlaqədar şəhid Sərxan Bayramovun məzarını ziyarət edib, ailəsinə baş çəkib.

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsi və 42 saylı tam orta məktəbin təşkilatçılığı ilə "Torpağı müqəddəsləşdirənlər" adlı tədbir keçirilib. Məktəbin direktoru İlham Mirzəliyev, Uşaq şöbəsinin müdiri Yeganə Hüseynova və başqaları çıxış edərək Aprel döyüşlərinin əhəmiyyətini qeyd ediblər.



Regional idarənin Zəngilan rayon nümayəndəliyinin əməkdaşları tərəfindən Aprel şəhidləri Rəşid Baxşəliyev və Əbdülməcid Axundovun məzarları ziyarət olunub. Daha sonra əməkdaşlar şəhid R.Baxşəliyevin ailəsinə baş çəkiblər. Xızı rayon Heydər Əliyev Mərkəzində də əlamətdar ildönümü münasibətilə tədbir təşkil olunub.



Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Beyləqan nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Aprel döyüşləri dövlətimizin, xalqımızın, Ordumuzun gücünü göstərən qələbədir" adlı elmi-praktik konfrans keçirilib. Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Xəyalə Kərimova, GİKM Beyləqan nümayəndəliyinin direktoru Zaur Musazadə və başqaları çıxış ediblər.

Samux rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, GİKM Samux nümayəndəliyi və Samux rayon Sərkar kənd tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Zəfərin ilk toxumu – Aprel savaşı" mövzusunda tədbir keçirilib.

Ağdaş RMİ Ağdaş Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə muzeyin direktoru Nişanə Yusibova çıxış edərək Aprel zəfərinin əhəmiyyətindən, Ordumuzun Qələbə əzmindən söz açıb.

Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində GİKM Ağcabədi nümayəndəliyinin iştirakı ilə "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir" adlı film nümayiş olunub.

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzi və GİKM Salyan nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şanlı Qələbəmizin başlanğıcı – Aprel döyüşləri" adlı tədbir keçirilib. "Aprel döyüşləri necə başladı və nəticəsi" adlı qısametrajlı film nümayiş etdirilib.

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsi "Aprel şanlı tariximizdir" başlıqlı oxucu konfransı və kitab sərgisi təşkil edib. Tovuz rayon Mərkəzi Kitabxanasında isə "Böyük Qələbənin başlanğıcı" mövzusunda sərgi keçirilib.



Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri – böyük Qələbənin başlanğıcı" mövzusunda keçirilən tədbirdə çıxış edənlər Ordumuzun göstərdiyi igidlikdən, bu tarixi hadisənin əhəmiyyətindən söz açıblar. Mərkəzdə 2016-cı ilin Aprel döyüşlərinin şəhidi, Milli Qəhrəman Murad Mirzəyevin doğum günü (31 mart 1976) ilə bağlı fotosərgi də açılıb.

Şirvan şəhər Mədəniyyət Mərkəzində də eyni mövzuda tədbir təşkil olunub, videoçarx nümayiş etdirilib.



Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Aprel döyüşləri böyük Zəfərin başlanğıcıdır" adlı şeir gecəsi keçirilib. Tədbirdə Gəncə şəhər Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbin şagirdləri vətənpərvərliyə həsr olunmuş şeirlər səsləndiriblər.

Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzinin M.Kələntərli adına şəhər Sənətkarlıq klubunda keçirilən tədbirdə klubun "Kürə" bədii qiraət dərnəyinin üzvləri, Ləj kənd Sənətkarlıq klubunun bədii qiraət və rayonun incəsənət ustalarının ifasında şeirlər və musiqilər səsləndirilib.

İsmayıllı RMİ Qəbələ rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşlərindən 6 il ötür" adlı tədbir təşkil olunub. Tədbirdə mərkəzin direktoru Fuad Qasımzadə çıxış edərək Aprel döyüşlərində digər bölgələr kimi, Qəbələdən olan gənclərin də öz igidlikləri ilə xalqımıza başucalığı gətirdiklərini bildirib.

Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Aprel döyüşlərinə həsr olunmuş film nümayiş etdirilib.

## Yerlərdə teatr havası

### Sumqayıt teatrının "Xəzinə"si

9-10 aprel tarixlərində Sumqayıt Dövlət Dram Teatrında Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan, mütəfəkkir şair Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Xəzinə" tamaşasının premyerası keçiriləcək.

Nizami "Xəmsə"sinin motivləri əsasında yazıçı-ssenarist Hafiz Ataxanlının qələmə aldığı epik pritçanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Rəqslərin quruluşu isə Vüsal Mehrəliyevə məxsusdur. Tamaşada Əməkdar artist Cəlal Məmmədov, aktyorlar Oktay Mehdiyev, Akif Mirzəyev, Habil Xanlarov, Yalçın Səlimov, Siyavuş Mahmudov, Cavanşir Eyyubzadə, Vəfa Qurbanova, Ümid Abbas, İlahə Səfərova, Şəmistan Süleymanlı, Aynur Hümmətova, Məryəm Hüseynli, Kamran Muradlı, Rövşad İlyasov, Etibar Əmirov və Orxan Firudinov çıxış edirlər.



### Qusar teatrında "Xarıbəy, Sarıbəy"

Qusar Dövlət Ləzgi Dram Teatrında yerli dramaturq, Dağıstanın Əməkdar incəsənət xadimi Asəf Mehmanın (1930-2015) "Xarıbəy, Sarıbəy" komediyası əsasında eyniadlı tamaşanın məşqləri başlanıb.



İki dostun başına gələn komik hadisələrin ön planda olduğu məişət mövzulu əsərdə məhəbbət motivi ana xətt kimi keçir.

Səhnə işinin quruluşçu rejissoru Bağır Əhmədov, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur. Rolları Həsrət Nəsrullayev, Yuri Kərimov, Sədaqət Əlimuradova, Rəhilə Hacıbəyova, Namiq Mustafayev və başqaları ifa edirlər.

Tamaşanın may ayında təhvil verilməsi nəzərdə tutulur.

### Lənkəran səhnəsində "Casus"

Lənkəran Dövlət Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın "Casus" pyesinin motivləri əsasında hazırlanan eyni adlı tamaşanın məşqləri gedir.



Teatrın baş rejissoru Anar Babalının quruluş verdiyi səhnə əsərinin quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Azər Hacıəsgərlidir.

İkihissəli komediyada Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sücəddin Mirzəyev, artistlərdən Əlibala Əsgərov, Qızıgül Quliyeva, Allahverən Babayev, Aynur Əhmədova, Miraslan Ağayev, Əbülfəz Axundov və Sayad Əliyev rol alırlar.

Tamaşanın premyerası mayın əvvəlinə nəzərdə tutulur.

## "Uşaqları kitabla böyüdək"

2 aprel tarixi dünyada Uşaq Kitabı Günü kimi qeyd olunur. Ölkəmizdə də bu əlamətdar gün münasibətilə müxtəlif tədbirlər keçirilib.



Şəki RMİ Zaqatala rayon Mərkəzi Kitabxanası tərəfindən uşaq kitablarından ibarət sərgi təşkil edilib. Zaqatala şəhər və Aşağı Tala kənd 1 saylı kitabxana filiallarının dəstəyi ilə şəhərin Dədə Qorqud meydanında təşkil olunan sərgidə uşaqların maraq dairəsinə uyğun kitablar nümayiş etdirilib.

İsmayıllı RMİ İsmayıllı rayon MKS-nin Uşaq kitabxanasında keçirilən tədbirdə fəal oxucularla yerli yazarların görüşü təşkil olunub.

Lənkəran RMİ Lənkəran şəhər Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirib.

Ağstafa RMİ Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası Mədəniyyət Mərkəzinin qarşısında "Uşaqları kitabla böyüdək" başlıqda səyyar kitab sərgisi təşkil edib.

Gəncə RMİ Gəncə şəhər MKS-nin Uşaq şöbəsi "Kitablarla dünyaya səyahət edək", "Kitab varsa, sən tək deyilsən", "Sehrli nağıllar silsiləsindən" və s. başlıqlar altında kitab sərgisi təşkil edib. Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialı tərəfindən keçirilən "Kitabsız bir ömrün nə mənası var?!" adlı tədbirdə M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbin 6-cı sinif şagirdləri kitaba həsr olunmuş şeirlər, aforizmlər söyləyiblər.





Sumqayıt RMİ Abşeron rayon MKS-nin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunan tədbirdə əvvəlcə uşaq incəsənət məktəbləri şagirdlərinin əl işlərindən ibarət rəsm və uşaq kitablarından ibarət sərgilərə baxış olub. Kitabxananın nağıl otağında isə rayon ərazisində yerləşən uşaq bağçalarının balaca fidanlarının ifasında bir-birindən maraqlı nağıl və şeirlər səsləndirilib. Daha sonra Sumqayıt RMİ-nin baş məsləhətçisi, Abşeron rayonu üzrə nümayəndə İlham Manafov və rayon İcra Hakimiyyəti başçısının müavini Gülnar Rəhimovanın çıxışları dinlənilib.

### Yaradıcılıq evində "Şuşa İli" tədbiri

Bərdə RMİ Yevlax rayon Aşağı Qarxun kənd Uşaq musiqi məktəbi tərəfindən Yevlax şəhər Yaradıcılıq evində "Şuşa İli" ilə bağlı tədbir keçirilib.

Tədbir çərçivəsində Qarabağın, o cümlədən Şuşa şəhərinin zəngin tarixindən, mədəni irsindən, işğal dövründə məruz qaldığı dağıntılardan söz açılıb, şuşalıların yaşadıqları çətinliklər, Vətən həsrəti səhnəciklərlə, şeirlərlə xatırlanıb. Şuşanı vəsf edən mahnıların, mədəniyyət beşiyimizin yetişdirdiyi incəsənət xadimlərinin əsərlərinin ifa edildiyi tədbir maraqla qarşılanıb.



Tədbirdə "Arşın mal alan" operettasından "Qızların xoru" səhnəsi nümayiş etdirilib. Sonda məktəb kollektivinin ifasında "Əziz Şuşa" mahnısı səsləndirilib.

### Regional mədəniyyət idarəsində ziyalılarla görüş

Sumqayıt RMİ-də Qobu qəsəbəsinin ziyalı ağsaqqalları ilə görüş keçirilib.

İdarə rəisi Rəşad Əliyev, baş məsləhətçi – Abşeron rayonu üzrə nümayəndə İlham Manafovun iştirakı ilə gerçəkləşən görüşdə Şəkidə təşkil edilən "Böyük Qafqaz incəsənət və rəqs kuboku – 2022" müsabiqəsində Qobu qəsəbə Uşaq incəsənət məktəbi yetirmələrinin uğurlarından, məktəbin maddi-texniki bazasının təkmilləşdirilməsinin vacibliyindən bəhs olunub.

Görüşdə ziyalılar qəsəbənin mədəni həyatının daha da canlandırılması üçün fikir və təkliflərini bildirib, eyni zamanda Abşeron rayon MKS-nin Qobu qəsəbə filialının təmir olunmasına köməklik göstərilməsini xahiş ediblər.

### Musiqi və incəsənət məktəbləri şagirdlərinin uğurları

Sumqayıt RMİ Səid Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin skripka şöbəsinin 1-ci sinif şagirdi Zəhra Əlimətova (müəllim – Violetta Həsənəlizadə) Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən beynəlxalq incəsənət müsabiqəsində 1-ci dərəcəli laureat adına layiq görülüb.

Məktəbin fortepiano şöbəsinin 3-cü sinif şagirdi Gülxar Hüseynli (müəllim – Rufana Zülfüqarova) isə Gürcüstanda onlayn keçirilən M.Altunasvili və M.Paniaşvili adına 7-ci beynəlxalq musiqi müsabiqəsində 1-ci yeri qazanıb. Həmin müsabiqədə Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbinin fortepiano şöbəsinin 2-ci sinif şagirdi Məryəm İsayeva (müəllim – Elnarə Əhmədova) "İlin ən yaxşı ansamblı" nominasiyası üzrə 1-ci yeri tutub.

Sumqayıt RMİ-nin əhatə etdiyi Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbinin fortepiano üzrə IV sinif şagirdi Aynaxanım Ağazadə (müəllim – İradə Abdullayeva) Belarusun Minsk şəhərində keçirilən "Avropa-Asiya ulduzları" onlayn beynəlxalq müsabiqəsində öz yaş kateqoriyasında 1-ci yerə layiq görülüb. Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin skripka ixtisası üzrə şagirdi Ayan Quliyeva Türkiyədə onlayn keçirilən 4-cü beynəlxalq "CA Melody" müsabiqəsində 2-ci dərəcəli laureat adını qazanıb. Ayanın müəllimi Ülkər Əsgərova isə təşəkkürnamə ilə təltif olunub.

## Uşaq kitab festivalı keçirildi



2-3 aprel tarixlərində "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin (ANAİB) təşkilatçılığı ilə paytaxtda keçirilən Uşaq kitab festivalına bölgələrin bədii tədris ocaqları da maraq göstərib. Festival 2 aprel – Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunmuşdu.

Layihə rəhbəri, "Ağıllı bala" uşaq nəşriyyatının direktoru Fatimə Alxaz bildirdi ki, festivalda uşaq kitablarının satışı keçirilir: "Festivalda 15 uşaq kitab nəşriyyatı iştirak edir. Hər bir nəşriyyat kitablara 20%-dən 70%-dək endirimlər nəzərdə tutub. Tədbirdə kitab mağazaları da təmsil olunur. Bundan əlavə, öz kitablarını təqdim etmək istəyən müəlliflər üçün ANAİB-in innovativ layihəsi olan "Öz kitabını sat" guşəsi də fəaliyyət göstərir".

Müsahibim festivala Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən Füzuli şəhər 2 nömrəli Uşaq incəsənət məktəbi və Ağcabədi RMİ Ağdam şəhər Xan Şuşinski adına Uşaq muğam musiqi məktəbi şagirdlərinin qatıldığını da diqqətə çatdırdı. Bildirdi ki, festival çərçivəsində ustad dərsləri də keçirilir. Ustad dərslərində uşaqlar gildən saxsı qablar düzəldir, torbaları boyayır və müxtəlif əl işləri hazırlayırlar.

Qeyd edək ki, iki gün davam edən festivalda müxtəlif panellər, nağıl və tamaşa saatları təşkil olunub. Bir sıra uşaq yazıçıları, türkiyəli yazar Suat Turqut və Əməkdar artist Bəhram Bağırzadənin uşaqlarla görüşü və imza mərasimi gerçəkləşib.

Xatırladaq ki, Beynəlxalq Uşaq Kitabı Günü danimarkalı uşaq yazarı Hans Xristian Andersenin (1805-1875) doğum günü (2 aprel) münasibətilə 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən təsis edilib.

Hazırladı: N.Məmmədli

# Xalq məhəbbəti qazanan muğam ustadı

## Əlibaba Məmmədovun xatirəsinə həsr olunan gecə

Bu ilin fevralında dünyasını dəyişən görkəmli muğam ustadı, Xalq artisti, professor Əlibaba Məmmədov milli ifaçılıq sənətinin inkişafına mühüm töhfələr verib, yeni xanəndələr nəsli yetişdirib, eyni zamanda bəstələdiyi mahnı və təsniflərlə musiqi tariximizdə silinməz iz qoyub.

Aprelin 4-də Beynəlxalq Muğam Mərkəzində (BMM) unudulmaz xanəndənin xatirəsinə həsr olunmuş gecə keçirildi.

BMM-in təşkilatçılığı və Xan Şuşinski Fondunun dəstəyi ilə reallaşan gecədə qonaqlar ilk olaraq böyük ekranda mərhum xanəndənin ifasının lent yazısını izlədilər.

Tədbirin aparıcısı – Əməkdar mədəniyyət işçisi, musiqişünas Səadət Təhmirazqızı xanəndənin həyat və yaradıcılığından söz açdı. Bildirdi ki, XX əsrin 50-ci illərində sənət fəaliyyətinə başlayan Əlibaba Məmmədov sənətkarlığı ilə xalqın böyük məhəbbətini qazanıb: "Onun sənətini və şəxsiyyətini rövnəqləndirən, nurlandıran da məhz bu xalq məhəbbətidir. Bu məhəbbət daim Əlibaba müəllimin sənət yoluna işıq saçıb. Əlibaba Məmmədovun Azərbaycan musiqisinin inkişafında xidmətləri əvəzsizdir. Xanəndənin ifasında "Bayatı-Şiraz", "Dəşti", "Şur" və başqa muğam və təsniflər Azərbaycan Radiosunun "qızıl fondu"nda qorunub saxlanılır. Unudulmaz sənətkar həm də 100-dən çox mahnı və təsnifin müəllifidir. Onun mahnı və təsniflərini muğam ifaçıları bu gün də sevərək ifa edirlər.

Musiqişünas muğamın tədrisi sahəsində uzun illər uğurla çalışan Əlibaba Məmmədovun yaradıcılıq yolunun gənc xanəndələr nəsli üçün bir sənət məktəbi olduğunu dedi: "Əlibaba müəllimin mahnıları yalnız özünün deyil, başqa sənətkarların da repertuarına daxil edilib. Xalq mahnısı adı ilə səslənən bu nəğmələr elin yaddaşına hopub, dillər əzbəri olub. Onlardan "Gəl bizə, yar", "Beləyəm", "Yaşa hələ" başqalarını qeyd edə bilərik. Bu mahnılar musiqi tədrisi proqramlarına da daxil edilir".

Xalq artisti, tarzən Fikrət Verdiyev, Əlibaba Məmmədovun "Humayun" ansamblında xanəndə ilə birgə çalışmış qarmon ifaçısı Hüseyn Hüseynov çıxış edərək sənətkarla bağlı xatirələrini bölüşdülər. Vurğulandı ki, Əlibaba Məmmədovun sənəti əbədiyaşardır. Onun Azərbaycan mədəniyyətinə, muğamına verdiyi töhfəni xalqımız heç vaxt unutmayacaq.

Ustad xanəndənin ailəsi adından filologiya üzrə fəlsəfə doktoru, dosent Əsmətxanım Məmmədova çıxış edərək tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.



Xatirə gecəsində Xalq artistləri Zabit Nəbizadə, Mələkxanım Əyyubova, Əməkdar incəsənət xadimi Aqil Məlikov, Əməkdar artistlər Nuriyyə Hüseynova, Ehtiram Hüseynov, Bəyimxanım Vəliyeva, Sevinc Sarıyeva, Fehruz Səxavət, Təhmiraz Şirinov, xanəndələr Nisbət Sədrayeva, Hüseyn Məlikov, Məmməd Nəcəfov, Vəfa Vəzirova, Anar Quliyev Əlibaba Məmmədovun repertuarından təsnif və mahnıları təqdim etdilər. İfaçıları Xalq artisti Möhlət Müslümovun rəhbərliyi ilə Azərbaycan Televiziya və Radiosunun Əhməd Bakıxanov adına Xalq çalğı alətləri ansamblı müşayiət edirdi.

Xatirə gecəsinin sonunda Səadət Təhmirazqızının Əlibaba Məmmədov haqqında yazdığı "Bizim ustad" kitabı qonaqlara hədiyyə edildi. Kitabda Əlibaba Məmmədov yaradıcılığının hər üç qolu – xanəndə, bəstəkar və şairliyi əksini tapıb. Nəşrin redaktoru Xalq artisti, professor Ramiz Zöhrabov, rəyçisi Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadədir.

**Lalə Azəri**

# Mərkəzi İncəsənət Məktəbi Şəkidə konsert və ustad dərsi təşkil edib





Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin (MİM) kollektivi bu təhsil ocağının yaradılmasının 85 illiyi və "Dünya Gülüş Günü" (1 aprel) münasibətilə Şəkidə "Gülüşümün vətəni Şəkim" adlı konsert proqramı təqdim edib.

Şəki Dövlət Dram Teatrında keçirilən tədbirdə şəhər İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların nümayəndələri, mədəniyyət işçiləri, musiqisevərlər iştirak ediblər.

Tədbirin əvvəlində Şəkinin görkəmli gülüş ustaları, bəstəkarları, aktyorları haqqında videoçarxlar və filmlərdən fraqmentlər nümayiş olunub.

MİM-in direktoru, Əməkdar artist Əziz Qarayusifli (klarnet), Şahnaz Muradova (kamança), Sevinc Kərimova (fortepiano) və Bəturə Əhmədovanın (qanun) birgə ifasında Ü.Hacıbəylinin musiqili komediyaları əsasında popurri səsləndirilib.

Daha sonra konsert proqramı təqdim olunub. Bir-birindən maraqlı musiqi nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsertin sonunda Şəki Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi vəzifəsini müvəqqəti icra edən Tərlan Nəsibov çıxış edərək Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin kollektivinə yubiley münasibətilə təbriklərini çatdırıb, maraqlı konsert proqramına görə təşəkkürünü bildirib.

Məktəbin direktoru Əziz Qarayusifli konsertin təşkilinə göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə, Şəki RMİ-yə və musiqisevərlərə minnətdarlığını bildirib.

Şəkiyə səfər çərçivəsində Mərkəzi İncəsənət Məktəbinin müəllimləri tərəfindən Şəki RMİ-nin tabeliyindəki Şəki şəhər Uşaq incəsənət məktəbində ustad dərsi də keçirilib. Əziz Qarayusifli (klarnet), Mənsurə Quliyeva (fortepiano), Şahnaz Muradova (kamança), Nəbi Quliyev (tar) və Humay Süleymanlı (vokal) tərəfindən gerçəkləşdirilən ustad dərsində Şəki, Oğuz və Qaxdan bədii təhsil müəssisələrinin müəllim və şagirdləri iştirak ediblər.

## Akademik Musiqili Teatr sülh çağırışına qoşulur

Aprelin 5-dən 10-dək Avrasiya Teatr Birliyinin təşkilatçılığı ilə İstanbulda Maltəpə Bələdiyyəsinin Türkan Saylan Mədəniyyət Mərkəzində "Tunçcer Cücenoğlu teatr günləri" keçiriləcək.

"Barışa bəli!" şüarı altında dünyanın müxtəlif ölkələrinin mədəniyyət və incəsənət nümayəndələrini birləşdirən festivalda ölkəmizi Azərbaycan Dövlət Akademik Musiqili Teatrının rejissoru, Prezident mükafatçısı İradə Gözəlova təmsil edəcək.

Rejissor bu səfəri ilə həm də Akademik Musiqili Teatrın sülh çağırışlı videoçarxını geniş sənət auditoriyasına çatdırmaqda bir vasitəçi olacaq.

Qeyd edək ki, festivalın formatına uyğun olaraq hazırlanan qısa videoçarxda Akademik Musiqili Teatrın konsertmeysteri, Prezident təqaüdçüsü Kamil Həsənovun müşayiəti ilə Əməkdar artistlər Nərgiz Kərimova və Fərid Əliyevin ifasında "Ey Vətən!" mahnısı səsləndirilir.

## "Yeni adlar" layihəsində musiqi axşamı



Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) məzunu, respublika və beynəlxalq müsabiqələr laureatı Vurğun Vəkilov və akademiyanın tələbəsi Leyla Zeynalovanın (hər ikisi piano) iştirakı ilə konsert proqramı keçirilib.



Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsi çərçivəsində gerçəkləşən musiqi axşamında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, gənclər və idman naziri Fərid Qayıbov, təhsil naziri Emin Əmrullayev, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak ediblər.

Konsertdə gənc pianoçuları respublika və beynəlxalq müsabiqələr laureatı, dirijor Mustafa Mehmandarovun idarəçiliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib. İstedadlı gənclər rus bəstəkarları Dmitri Şostakoviç və Sergey Raxmaninovun əsərlərini yüksək peşəkarlıqla səsləndiriblər. Gənclərin ifası maraqla qarşılanıb.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsi gənclər arasında Azərbaycan musiqi mədəniyyətinin təbliği, onların musiqi və estetik zövqünün formalaşdırılması məqsədi daşıyır. Layihənin hədəfi həm də istedadlı gənclərin üzə çıxarılması və geniş auditoriya tərəfindən tanınmasına vəsilə olmaqdır.

# Köhnə nömrələrlə təzə "Sehrbaz"lıq

Söhbəti bir az uzaqdan başlayacam. Çünki xüsusən son zamanlar teatr, sənət mühitində yüngülvari tənqidə, adi rəyə, tamaşaçı fikrinə də ətrafında söhbət gedən yaradıcı məhsulun təqdimatçılarından elə təpkilər gəlir ki, qalırsan kəsilə-kəsilə. Belə olduqda da bəzən susmağa məcbur olursan. Amma bu məcburiyyət qətiyyən polemikadan qaçmaq ilə əlaqəli deyil. Sadəcə, yaradıcı əməyə sayğı göstərərək...

Əgər bunu etməsən, mütləq kimsə sənin qərəzli olduğunu, zəhməti yerə vurduğunu düşünüb, duyğular, hisslər üzərində uzun mükalimə açacaq. Bu mənada düşünürəm ki, həm sağlam tənqid mühiti formalaşmalı, həm də ona münasibətdə dözümlülük olmalıdır...

Fəlsəfi düşüncənin ədəbi mətnə təsirli və sadə sintezi məqamında tanınmış nasir, dramaturq, Əməkdar incəsənət xadimi Firuz Mustafa dövrümüzün ən maraqlı müəlliflərinfəndir. Bu yazıda müəllifin teatr səhnəsinə yol tapan növbəti əsəri – "Sehrbaz" ətrafında danışacam. Əsərə səhnə yozumunu Xalq artisti Mərahim Fərzəlibəyov verib.

Uzun fasilədən sonra seyrçisini yenidən ətrafına səsləyən Bakı Bələdiyyə Teatrının aprelin 1-də baş tutan premyerasında xeyli tamaşaçı var idi. Dəvət əsasında olsa da, zal tamamilə dolmuşdu.

Onu da əlavə edim ki, tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, illüziya məsləhətçisi Elmar İbrahimov, dizayn işləri üzrə tərtibatçısı Elnur Əliyevdir. Səhnə əsərində İsmayıl Atakişiyev, Tural Əhməd, Zülfiyyə Qurbanova, Aynur Abbasova iştirak edirlər.

İlk görüşdə bir-biri ilə tanış olmayan, yad, özgə adamların qəribə taleyindən söhbət açılan pyesdə hadisələrin gedişi prosesində məlum olur ki, bu adamlar əslində bir-birlərinə yad deyillər, həyat "xətləri" nə zamansa bir nöqtədə kəsişib.





Bir-birini əvəz edən gərgin, bir az da isterik hadisələr fonunda vaxtilə baş vermiş müdhiş hadisələrin, sirlərin üstü açılır. Əsərdə sevgi, nifrət, xəyanət səhnələri obrazların daxili aləminin açılmasında mühüm rol oynayır. Hadisələrin əsas "aparıcısı" olan sehrbaz digər qəhrəmanların keçmişinə işıq salır və bu işığın fonunda tamaşaçılar qəhrəmanların israrla gizlədiklərini görürlər.

Psixoloji-dram janrlı tamaşada konkret olaraq hadisələr nə zamansa istintaq mövzusu belə olan fakt üzərindən inkişaf edir: həkim-xəstə münasibəti və onun nəticəsi. Hərçənd biz bu nəticəyə elə də asan çatmırıq.

Sehrbaz (İsmayıl Atakişiyev) səhnədə illüzionist üçün bəsit və köhnə, aktyor üçün yeni bir-iki nömrə göstərir və ardınca salondan, tamaşaçılar arasından seçdiyi şəxsləri (aktyorları) bir-bir səhnəyə, bir növ ittiham kürsüsünə, fakt ilə qarşılaşmaq tribunasına dəvət edir. Həqiqət də tanış və aktualdır. Övladı olmayan Şəhla (Zülfiyyə Qurbanova) ana olmaq, müalicə almaq üçün qonşu qadının məsləhəti həkim qəbuluna gedir. Xəstəsini qəbul edən Samit (Tural Əhməd) isə şəfa vermək kimi ali və sadə həkim keyfiyyətindən uzaqdır. O, qadına dərman verərək içməsini istəyir və sonra yuxuya gedən xəstəsi ilə yaxınlıq edir. Nəticədə qadın bilmədən hamilə qalır və bir qızı dünyaya gəlir. Amma az sonra guya körpə ölür və bu işdə qadın illərdir ki, həkimi ittiham edir. Şəhlanın artıq gözəl gənc qıza çevrilmiş naməlum qızı Aysu (Aynur Abbasova) da həkimə, əslində, bioloji atasına aşiqdir. Amma o hər vəchlə bu qızı yaxına buraxmaq istəmir. Ona gah "qızım yaşındasan", gah da "bizim münasibətimiz xəstə-həkim münasibətindən o yana keçə bilməz" kimi qəti etiraz edir.

Nəticədə Sehrbazın zaman üzərində "əməliyyatları" ilə hər şeyin üstü açılır və həqiqət zəfər çalır... Amma necə? Birdən-birə səhnədə müqəddəs Məryəm təsviri (monitorda) görünür və Şəhla ilə Məryəm, körpə ilə müqəddəs ruh, ümumən kainat ilə ilahi varlıqlar arasında bir bağ, əlaqə yaradılmağa çalışılır. Ən maraqlısı da sonda sehrbaz da qiyafəsini çıxarıb, funksiyasını dəyişir və hər şey bitir. Elə bil insanlıq müqəddəs hadisəyə işarə ilə öz günahı, bəlkə də günahsızlığı ilə qarşı-qarşıya qalır. Beləcə biz adi faktdan, əslində, aktual mövzudan, baxımlı alınacaq problematikanın səhnə yozumundan və çox yəqin ki, müəllifin ideya axınından kənarda qalırıq. Əvəzində tamaşaçıya təqdim olunan quruluş üzərində baş sındırmaqla məşğul oluruq.

Etiraz eləmirəm, sındıraq, amma birbaşa, rəvan yol olduğu halda və mətnin bədii təsvir xətti buna şərait yaratmışkən niyə kələ-kötür yolda yıxılıb dizimi çapaq ki?!. Axı, müasir tamaşaçın buna nə istəyi, nə də marağı var. Maksim Qorki məhz belə vəziyyətlər üçün "Bədii əsərdə sözlər üçün darısqallıq, fikir üçün genişlik var" kimi təyin də verib. Beləcə tamaşaçıya, oxucuya fikir üçün geniş meydan istəyib, onu yükləmək üçün yox.

Əslində, dramaturji materialda bu prinsip öz həllini tapıb və hətta müəyyən ifadələri, ağırlaşdırılmış təkrarçı (yəqin rejissor tələbidir) söz yükünü çıxsaq, effektiv alınmışdı. Xüsusən tamaşada nəzmlə nəsrin vəhdəti. Bu mənada forma da maraqlı seçilmişdi. Bir obraz – Sehrbaz nəzm, digər üç personaj isə nəsr formalarını birləşdirmişdi.

Tamaşanın tərtibatı da sadə idi. Səhnədə bir neçə oturacaq – ittiham kürsüsü funksiyasında stul var idi. Dekorasiyanı ekran əvəzləmişdi. Səhnələrin effektivliyini artırmaq üçün mizan və dialoqlara uyğun ekranda qalaktika, təbiət, dəniz, qürub, sonsuzluq ilə bağlı təsvirlər görünür və bu, daha çox texno-musiqilərlə müşayiət edilirdi.

Bu məqamda tamaşanın təsir dairəsini genişləndirməyə xidmət edən bəzi detalların əksinə işlədiyin də qeyd etməliyəm. Məsələn, nədənsə fokusçu oyuna – yəni işinə əylənmək kimi yanaşmır və bizim onun sehrbazlığı haqqındakı fikirlərimizi pərən-pərən salırdı. İlk replikalarından gərgin və ziyadə həyəcanlı görünən aktyor bunu "səxavətlə" salona da ötürürdü. Bəlkə də bu, rejissorun tələbi idi, amma bütün hallarda biz əslində xilas üçün peyda olan sehrbazın heç bir nömrəsindən təsirlənə bilmədik.

Xəstəsinə qarşı bütün ağlagəlməz əclaflıqları edən həkim də eyni səhnə aqibətini yaşadı. Səhnədə hər an "İndi sizə bir şeir oxuyacam" vəziyyətində olan aktyor qəhrəmanının xarakterik keyfiyyətlərini hiss edə bilmədi. Hərçənd həm obrazının tələbi, həm də rejissorun onun oyunu üzərindən etdiyi şaxələnməni fürsətə çevirə bilərdi.

Gələk təcavüzə məruz qalan, istəmədiyi halda ərini aldatmış olan, buna görə illərdir əzab çəkən, üstəlik də övladını itirən, tapan və bütün faciəvi məqamların fonunda taqətdən düşən Şəhlaya. Tamaşanın əsas fiquru – baş qəhrəmanı olan bu rolun ifaçısı səsi və plastikası ilə tamaşaçı ilə yaxşı oynayan, zala təsir edən aktrisadır. Xüsusən bir çox həmkarlarına xas nitq, danışıqda ifadəsizlik qüsuru ona yaddır. Bütün məqamlarda tamaşaçı onu eşidir və nə dediyini anlayır. Di gəl ki, biz bu oyunda onu yalnız isterik vəziyyətləri, təsir gücünü itirən fəryadları və bir an belə olsun onu tərk etməyən qışqırtıları ilə gördük, duyduq. Hətta körpəsini ovutmaq, yatırmaq məqamlarında da "bağıran" pıçıltılarını eşitdik...

Rejissorun çılğınlıq və dinamika istədiyi gənc Aysunun ifaçısı da bunun öhdəsindən gələ bilmədi.

Beləcə sehrbazlıq nömrələri ilə başlayan tamaşa maskalı bal ilə bitdi və cavabsız sualları özü ilə kulisə "daşıdı"...

**Həmidə Nizamiqızı**

# Xalq artisti Zülfüqar Abbasovun teatr ömrünə vida sözü

Əyalətdə doğulub yaşayan, yazıb-yaradan insanların böyük arenaya çıxa bilməmək, tanınmamaq, diqqətdən kənarda qalmaq, mərkəzin qaynar mühitindən ayrı düşmək sorunu olub həmişə. Üstəlik, ağır oturub batman gələn, adının, sənətinin səviyyəsini bilib özünə də dəyər-qiymət verməyi bacaran, ziyalılığını qoruyub saxlamağa çalışan sənət adamlarının işi daha çətin olur.

Aprelin 1-də Mingəçevirdə dünyadan köçən Xalq artisti, uzun illər Mingəçevir Dövlət Dram Teatrının baş rejissoru, direktor və bədii rəhbəri olmuş Zülfüqar Abbasovun vəfatından keçən günlərdə bunu bir daha hiss etdim...

Görəsən, bu yazıda mənə doğma olan o adamı sizə tanıda, kimliyini anlada biləcəyəmmi?

Tərcümeyi-halı belədir: 1940-cı il may ayının 3-də Gürcüstanın Borçalı rayonunun Yuxarı Saral kəndində anadan olub. Əsli-kökü Qərbi Azərbaycanın Vedi və Dərələyəz mahalındandır. Ata babası Dinməz Abbas o mahallarda mənfur erməni qiyamçılarına qarşı intiqamçı qaçaq dəsətəbaşılarından olub. Sovetlərdən sonra labüd həbs, ölüm, ya sürgünlərdən canını qurtarmaq üçün Borçalıya köçüb gəliblər. Orta məktəbi, 1962-ci ildə A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutununun Azərbaycan bölməsini bitirib, tələbə ikən burada milli teatr tariximizə görkəmli aktyor və rejissor kimi daxil olmuş Gürcüstanın Xalq artisti İbrahim İsfahanlının tamaşalarında rol alıb. Teatra maraq onu 1966-cı ildə Bakı Teatr İnstitutuna (indiki Mədəniyyət və İncəsənət Universiteti) gətirib. Müəllimləri Mehdi Məmmədov və Məlik Dadaşovun xüsusi diqqətini, rəğbətini qazanıb. Təyinatla C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına rejissor göndərilib, sonra Qazax tearına gəlib və nəhayət, 40 il – 2008-ci ildə təqaüdə çıxana kimi Mingəçevir Dövlət Dram Teatrında çalışıb, rejissor, baş rejissor, direktor, bədii rəhbər.

"Almaz", "Solğun çiçəklər" (C.Cabbarlı, eyni zamanda Bəhram rolunu oynayıb), "Yağışdan çıxdıq, yağmura düşdük" (N.Vəzirov), "Hacı Qara" (M.F.Axundzadə), "Eşq və intiqam" (S.S.Axundov), "Müfəttiş", "Evlənmə" (N.Qoqol), "Əliqulu evlənir" (S.Rəhman), "Cavanşir", "Şeyx Şamil" (M.Hüseyn), "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsalı" (İ.Əfəndiyev), "Şeytan nəsli" (H.Muxtarov), "Dar ağacı" (B.Vahabzadə), "Ölülər" (C.Məmmədquluzadə), "Vaqif" (S.Vurğun), "Ayrılmaq anı" (M.Baycıyev), "Vaqif" (S.Vurğun), "Təcili teleqram" (İ.Hüseynov) və s. əsərləri tamaşaya qoyub. Xeyli tamaşada həm də aktyor kimi çıxış edib, zehni, yaddaşı o qədər güclü idi ki, bəzən tamaşaların bütün mətnini əzbər bilirdi. Onun ifa etdiyi rolları da bənzərsizliyi, təsirliliyi ilə fərqlənirdi.

İlyas Əfəndiyevin "Tənha iydə ağacı", "Sevgililərin cəhənnəmdə vüsalı" tamaşaları Akademik Milli Dram Teatrının səhnəsində də göstərilib, dəfələrlə xüsusi dəvətlə Bakı, Gəncə, Sumqayıt teatrlarında tamaşalar hazırlayıb, yüksək dəyərləndirilib. Dəfələrlə respublika müsabiqələrinin mükafatçısı, qalibi olmuşdu. 200-dən çox səhnə əsərinin, ictimai məzmunlu tamaşanın müəllifi və rejissoru olub. Birbaşa beyinə işləyən təsirli səsi var idi, məsələn, Mehdi Məmmədovun səsi kimi.

***

Zülfüqar Abbasovun dramaturq kimi istedadını Anar, İsa Hüseynov, Nəriman Həsənzadə, Zəlimxan Yaqub, Əliabbas Qədirov, Məmməd Burcəliyev, Ələddin Abbasovun yüksək dəyərləndirdiyinin şahidiyəm. Altı əsəri Mingəçevir və Qazax teatrında səhnə taleyi yaşayıb. Onun tamaşaya qoyduğu "Vətən dərdi", "Qisas qiyamətə qalmaz", "Kefdi bu millət", "Qəribə qonşular", "Vətən, Torpaq, Şəhid" və başqa pyeslərinin tamaşaları Sumqayıt və Gəncədə də böyük anşlaqla səhnəyə qoyulub, televiziyada göstərilib. Respublika Sarayında hər iki tamaşadan göstərilən parça sürəkli alqışlarla qarşılanıb, zalda qəribə effekt yaratmışdı. Zəngəzurlu Sultan bəy qanlı olduğu bəylərə məktub yazır ki, "Andronik toplu-tüfəngli qoşunu ilə torpağımızı almağa, namus-izzətimizi tapdalamağa gəlir, atımızın yükü əyibdi, gəlin, birləşib bu bəlanın qabağını alaq, sonra qanlılığımıza, düşmənçiliyimizə davam edərik...". Sonra bu tamaşalar repertuardan çıxarılmışdı.



Ə.Haqverdiyevin 4-5 pyesindən süjetlər götürüb bir tamaşada birləşdirirdi, çox təsirli alınırdı, baxılırdı. Sonra o ssenariləri alıb ideyanı özününküləşdirənlər də olurdu. Ürəyi geniş idi, "halal xoşun olsun" daimi sözü idi. Uca boy-buxununa yaraşan, qaçaq babasından qanla keçən mübarizliyi, prinsipiallığı var idi. Zaman-zaman da bu nədənlə təzyiqlərə məruz qalırdı. Elə böyük dövlət adamı Heydər Əliyevin Moskvada Siyasi Bürodan çıxdığı vaxtlarda akademik Zərifə xanım Əliyevaya həsr etdiyi "Anda xəyanət" tamaşasına görə başını ağrıtmışdılar.

Ən çox əziyyəti çəkirdi əlamətdar günlərdə – Yeni il, 20 Yanvar, Qurtuluş Günü və s. Əsas da məktəblilər bu tədbirlərin daimi tamaşaçıları olurdu, hər dəfə çalışırdı nə isə təzə bir ssenari çıxarsın ortalığa, hamısına da özünün içdən gələn milli, vətənsevər düşüncəsini hopdururdu. Dəfələrlə müəllimlərdən, direktorlardan eşitmişəm: "Uşaq və yeniyetmələrin milli, azad, demokratik ruhda, hərbi- vətənpərvərlik tərbiyəsində bu qədər müəllim, məktəb kollektivlərindən çox Zülfüqar müəllim, bu teatrın kollektivi təsirli iş görür".

Ön cəbhəyə ən yaxın teatr olduğundan, truppasının bir ayağı cəbhədəydi. Mingəçevir I və II Qarabağ savaşlarında ən çox şəhidi, qazisi olan bölgələrin siyahısında başda gəlir. 90-cı illərdə mingəçevirlilərdən ibarət M-1, M-2 batalyonlarının qəhrəmanlığı xüsusi seçilirdi. Mən burada Zülfüqar Abbasovun, kollektivinin təsirini də görürəm...

1993-cü ildə AZƏRTAC-ın "Kür" İnformasiya Mərkəzinin rəhbəri kimi Mingəçevirdə yaşamalı oldum. İlk tanış olub könül bağladığım insanlardan biri Zülfüqar müəllim idi. Onun israrı ilə 10 il həm də teatrın ədəbi hissə müdiri oldum, 2003-cü ildə Bakıya köçənə qədər. Gələndə də yerimi verdim Zülfüqar müəllimin vəfalı ömür-gün yoldaşına.

Sözümüz, dərdimiz, sirrimiz bir idi. Olduqca millət, vətənsevər ziyalı, dövrün, zamanın dərdini içində gəzdirən, mümkün olduğu qədər tamaşalarına daşıyan əsl teatr xadimi idi. O teatrın ayaq üstə durmağında, aktyorların yetişməyində, ən vacibi mingəçevirlilərin bədii-estetik zövqünün formalaşmasında Zülfüqar Abbasovun şəxsi rolu, xidməti əvəzsizdir. O, böyük maarifçi idi. 2008-ci ildə təqaüdə çıxandan sonra səhhətinin yol verdiyi qədər – beş il "El" TV-də "Fatehlər" və "Mənəviyyatımız tarixi qaynaqlarda" layihələrinin müəllifi, rejissoru və aparıcısı oldu. Mətbuatda davamlı olaraq çıxış edirdi. Əlaqələrimiz heç zaman qırılmadı.

***

2000-ci ildir, 60 illiyini keçirməyə güc-bəla ilə razı salırıq, şərt də qoyur ki, çıxıb səhnədə oturmayacam. Mingəçevir teatrının səhnəsində ayaq üstə durmağa da yer yoxdur, proqram zəngindir, tədbirin aparıcısı mənəm, çox sayda qonaqlar, teleqramlar gəlib, gözləmədiyimiz qədər. Tamaşalarından səhnələr göstərilir, orijinallığına, novatorluğuna, özünün rejissor icadlarına xüsusi diqqət etmişik, ünvanına müxtəlif teatrlardan, tanınmış sənətçilərdən gələn təbrik teleqramından seçmə abzaslar oxunur, arada öz səsi ilə əvvəlcədən lentə aldığımız monoloqları səslənir, effekt də yüksək.

Mədəniyyət naziri Polad Bülbüloğlu, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Məhəbbət Qarabağlı da yanaşı oturub, söz alacaqları, hədiyyə, fəxri fərmanlarını, yəqin həm də konvertlərini təqdim edəcəkləri anı gözləyirlər.

Deyirəm: - "Mən bu gün heç hörmətli nazirimiz Polad Bülbüloğlunun və icra başçımız Məhəbbət Qarabağlının yerində olmaq istəməzdim. Niyə? Ona görə ki, bu qədər tamaşaların, səviyyəli pyeslərin müəllifinin, illərdir tamaşaları ilə insanların içinin his-pasını yuyub təmizləyən bir baş rejissorun, teatr rəhbərinin heç bir fəxri adı, təltifi yoxdur. Mən əminəm ki, bayaqdan hörmətli başçımızla, hörmətli nazirimiz bu məsələni müzakirə edirlər ki, belə rejissora 60 yaşında təzədən "Əməkdar artist" adı vermək ayıbdır. Birbaşa "Xalq artisti" vermək də Prezident Heydər Əliyevin ixtiyarında olan məsələdir ki, gərək bugünkü yubiley mərasimindəki alqışların səs-sorağı, əks-sədası möhrətəm Prezidentə çatdırıla". Gur alqış səsləri zalı bürüyür...

Yubiley gecəsindən bir müddət keçmişdi Prezident Heydər Əliyevin 28 oktyabr 2000-ci il tarixli fərmanı ilə teatr rejissorları arasında ikinci hal olaraq Zülfüqar Abbasova birbaşa "Xalq artisti" fəxri adı verildi. Daha sonra Prezident İlham Əliyev tərəfindən "Tərəqqi" medalı və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edildi.

Zülfüqar müəllim teatra yeni gələn gənc aktyorlara səbirlə, təmkinlə öyrədər, sənəti elə sevdirərdi ki, tamaşalara baxanda bəzən təəccüblənməli olurduq. Hərdən pyes müəlliflərinin mətninə o qədər məharətlə əlavələr edirdi ki, ustalığa heyrətlənməmək mümkün deyildi. Onun yetirmələrini saymaqla bitirmək çətindir. Onlar bu gün şərəfli aktyor sənətinin ağır yükünü çiyinlərində daşıyırlar.

Zülfüqar Abbasovun təkcə şəxsiyyəti, varlığı o teatrdakı dedi-qodu, qruplaşma, umukүsünün üstünü örtürdü, hamını yola verirdi, ailə başçısı kimi mehriban, qayğıkeş, övladcanlı.

***

Son görüşümüz 2018-ci ildə, Mingəçevirin 70 illik yubileyində oldu. Mən şəhərə çatana qədər neçə dəfə zəngləşdik, çox darıxırdı. Görüşdük, şəkil çəkdirdik...

Martın 20-də zəng edib Novruz bayramını təbrik elədim. Aprelin 1-dir, zəngi gəlir, həmişəki kimi söndürüb özüm yığıram, ağlartı səsi içimi göynədir: "Getdi Zülfüqar qardaşın...".

Sənətkar Mingəçevir teatrından son mənzilə yola salınır. Zal doludur, 40 il nəfəs aldığı, nəfəs verdiyi teatr binasında cansız cismi ilə vida mərasimidir. Hətta aktrisalar da çiyinlərini cənazəyə vermək, sənət müəllimlərinə son borclarını yerinə yetirməyə çalışırlar. Hər tamaşadan sonra əvvəl aktryorlar səhnəyə çıxardı, onlar da alqış sədaları altında komandanın kapitanını – Zülfüqar Abbasovu səhnəyə dəvət edərdilər. Deyirdi, bizi yaşadan elə bu alqışlardı, başqa qazancımız yoxdur. Və bu dəfə Mingəçevir camaatı sevimli sənətkarını sürəkli alqışlarla yola salırdı, amma son mənzilə... Gedən cismidir, ruhu bizimlədir. Zülfüqar Abbasovun adı, sənəti, sözü, izi yaşayacaq ağuşunda əbədi uyuduğu nurlu şəhərimiz Mingəçevirdə.

Başınız sağ olsun, şəhərimin sakinləri, nurlu insanın doğma və əzizləri!

**Hacı Nərimanoğlu**

# "Şuşa mədəniyyətinin inciləri" – Yuxarı Gövhər ağa məscidi




Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsi yeni təqdimatlarla davam edir.

Layihənin "Şuşanın memarlıq salnaməsi" bölməsi üzrə növbəti təqdimat qala-şəhərimizin Yuxarı Gövhər ağa məscidinə həsr olunub.

Şuşada tarixi-dini mədəniyyət abidələrindən biri də Yuxarı Gövhər ağa məscidi və ya Şuşa Cümə məscididir. Bu, şəhərin mərkəzi meydanında tikilmiş ən qədim məsciddir. Yuxarı Gövhər ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb.

Yuxarı Gövhər ağa məscidi 1883-1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edilib. İndiki məscidin yerində hələ Şuşa şəhərinin əsasını qoymuş (1752) Pənahəli xanın dövründə qarğı və qamışdan inşa edilmiş məscid olub. Pənahəli xanın tikdirdiyi bu məscid 1768-ci ildə İbrahimxəlil xan tərəfindən daşla yenidən inşa edilib.

Daha sonra bu məscidin yerində müasir dövrümüzə qədər gəlib çatmış Yuxarı Gövhər ağa məscidi kimi tanınan həmin bina inşa olunub.

1992-ci ilin mayında Şuşanın mənfur qonşularımız tərəfindən işğalı nəticəsində məscid erməni vandalizminə məruz qalıb və qismən dağıdılıb, minarələrinin dekoru zədələnib və çadırvarı örtükləri sıradan çıxarılıb. Təmir-bərpa işləri adı altında məscidin daxili interyerində ciddi dəyişikliklər edərək tariximizi saxtalaşdırmağa çalışıblar.

Şuşa şəhəri 2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən azad edildi. Qələbəmizdən qısa müddət sonra mədəniyyət paytaxtımızda genişmiqyaslı yenidənqurma və abadlıq işlərinə başlanıldı. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva azad Şuşaya ilk səfərlərində Yuxarı Gövhər ağa məscidinə də baş çəkdilər. Dövlət başçısı Məkkədən gətirilmiş Qurani-Kərimi məscidə bağışladı.

Şuşada erməni vandalizminə məruz qalmış bir sıra tarixi-mədəni abidələrdə, o cümlədən Yuxarı Gövhər ağa məscidində bərpa işləri aparılıb. Hazırda Şəhərdə quruculuq davam edir.

# Bir Salam Qədirzadə vardı...

Onun yaradıcılığını daha çox gənc oxucular sevirdi. Çünki əsərləri xüsusilə gənclik çağının duyğularına, sərhəd tanımayan arzularına qol-qanad verir, onların taleyinə işıq salırdı. Tanınmış yazıçı, dramaturq, jurnalist Salam Qədirzadənin əsərləri həm də axıcı dili ilə nəğmə olub oxucuların qəlbinə dolurdu. Müəllif "Qış gecəsi", "46 bənövşə", "Kəndimizdə bir gözəl var", "Sevdasız aylar", "Sən olmasaydın" kimi əsərləri ilə ədəbiyyat gülüstanımıza gözəllik bəxş edib.

Salam Dadaş oğlu Qədirzadə 10 aprel 1923-cü ildə Bakı şəhərində anadan olub. Erkən çağlardan ədəbiyyata-poeziyaya maraq göstərib. O, yazıçı olmaq arzusu ilə tez-tez ədəbi dərnəklərə qatılıb, ədəbi yaradıcılığın ab-havasını hiss etməyə çalışıb.

Salam Qədirzadə 1941-ci ildə orta məktəbi bitirir. Ancaq həmin ərəfədə artıq II Dünya müharibəsi başlanmışdı. O da könüllü olaraq cəbhəyə yola düşür. Çətin və rəşadətli döyüş yolu keçir. 1941-1945-ci illərdə Şimali Qafqaz, Kuban, Qərbi Ukrayna, Polşa, Bessarabiya, Rumıniya, Çexoslovakiya uğrunda döyüşlərə qatılır, orden və medallara layiq görülür. 1946-cı ildə ordu sıralarından tərxis olunub Vətənə dönür.

Sumqayıt şəhər 18 saylı fəhlə-gənclər təhsili məktəbində müdir müavini vəzifəsinə təyin edilən Salam Qədirzadə 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olur. Eyni zamanda Mərkəzi Radionun yerli verilişlər üzrə məsul redaktoru vəzifəsində çalışır. Öz üzərində çox çalışır, mütaliəsini genişləndirir, bədii yaradıcılığa da vaxt ayırır. "Oqtay" adlı hekayəsi 1948-ci ildə "Pioner" jurnalında dərc olunur. O, bundan sonra mətbuatda müntəzəm çıxış edir.



Yazıçının hadisələrə yanaşması, əsərlərinin sadə və axıcı dili, aktual mövzulara üz tutması ədəbi ictimaiyyətin, oxucuların diqqətini özünə cəlb edir. Bu mənada müəllifin "Qış gecəsi" romanı xüsusilə əks-səda doğurur. Haqqında tənqidçilər də xoş söz söyləyiblər. Əsərdə daha çox gənclərin sosial həyatları ilə bağlı məsələlərə toxunulur.

Azərbaycan Yazıçılar İttifaqının zəmanəti ilə M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almaq üçün Moskvaya göndərilən Salam Qədirzadənin "Gənclik" povesti ittifaqın paytaxtında məşhur "Detgiz" nəşriyyatında çap olunur. O, təhsilini başa vurduqdan sonra 1952-ci ildə Bakıya qayıdır. Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında məsul katib vəzifəsinə işə götürülür. Səkkiz il burada çalışdıqdan sonra "Kirpi" jurnalına məsul katib təyin olunur. Bir müddət sonra Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi vəzifəsinə dəyişdirilir. 1976-cı ildə ona daha böyük etimad göstərilir, "Kirpi" dərgisinin baş redaktoru təyin edilir. Azərbaycan yazıçılarının VII qurultayında (1981) Yazıçılar İttifaqının İdarə heyətinə üzv seçilir.

Salam Qədirzadə yazıçı və jurnalist kimi sovet nümayəndə heyətinin tərkibində İtaliya, Fransa, Yunanıstan, Rumıniya, Finlandiya, Belçika və Türkiyədə səfərlərdə olub. Vətənə döndükdən sonra qələmə aldığı təəssüratlar müxtəlif mətbuat orqanlarında dərc edilib. Yazıçının xaricdəki müşahidələri əsasında ərsəyə gətirdiyi nümunələr oxucular tərəfindən maraqla qarşılanıb. Eyni zamanda keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə edilib.

Böyük tirajla çap olunan "Qış gecəsi", "46 bənövşə", "Kəndimizdə bir gözəl var", "Nar çiçəyi nağılı", "Sevdasız aylar", "Sən olmasaydın" kimi roman, povest və hekayələri müəllifə geniş şöhrət gətirib. Gənclərin mənəvi-əxlaqi keyfiyyətlərindən bəhs edən bu əsərləri oxuduqca adama elə gəlir ki, personajlar və onların başına gələn, içində olduqları olaylar yazıçı təxəyyülünün məhsulu yox, gerçək həyat hadisələridir. Çünki əsərlərdə həyatilik və təbiilik çox inandırıcıdır.

Yazıçının "Mənim ceyranlarım", "Həyat lövhələri", "Bir qız bir oğlanındır", "Təbəssümün mükafatımdır" əsərləri isə Azərbaycan hekayəçiliyinə yeni bir ruh və təravət gətirib, oxucular arasında populyarlıq qazanıb. Müəllif qələminin püxtələşdiyi vaxtlarda xəyalən qanlı-qadalı müharibə illərinə dönür. "Burada insan yaşamışdır" (1963) povestini qələmə alır. Əsərdə müharibənin insanlara yaratdığı çətinliklər, doğurduğu aclıq, səfalət, şəhər və kəndlərin xarabazarlığa çevrilməsi ürəkağrısı ilə təsvir edilir...

Tanınmış yazıçı həm də dramaturgiya sahəsində qələmini sınayıb, "Şirinbala bal yığır", "Hardasan, ay subaylıq?!", "Həmişəxanım", "Gurultulu məhəbbət", "Gözəllik ondur" və s. pyeslər qələmə alıb. Müəllifin komediyaları paytaxtımızla yanaşı, Gəncə, Naxçıvan, Dağıstan və Şəki teatrlarında səhnələşdirilib, tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Salam Qədirzadənin pyesləri respublikamızın hüdudlarından kənarda – Ukrayna, Moldova və digər ölkələrdə də səhnəyə qoyulub.



Bir-birindən maraqlı əsərlər yazan müəllifin "Hər gün ömürdən gedir" kitabını çap etdirməyə ömür vəfa eləmir. Yazıçı 15 noyabr 1987-ci ildə, 64 yaşında dünyasını dəyişir. Sonuncu əsəri olan "Hər gün ömürdən gedir" kitabı ədibin ölümündən sonra nəşr olunur. Yazıçının bir çox əsərləri kimi, bu kitab da ailə-məişət mövzusundadır. Ancaq əvvəlkilərdən fərqli olaraq burada insan taleyinə fəlsəfi baxış da öz əksini tapıb...

**Savalan Fərəcov**

# “Sərt üslub”un ilk qaranquşu

## Tofiq Cavadov rəngkarlığının estetikası haqqında

Əgər iyirminci yüzilliyin birinci yarısını şərti olaraq Azərbaycan rəssamlarının “sosialist realizmi” bədii prinsipinə uyğunlaşma mərhələsi hesab etmək mümkündürsə, İkinci Dünya müharibəsindən sonrakı ilk on ili bədii məkanda yeni axtarışlar dövrü kimi dəyərləndirmək olar.

Gənc rəssamların SSRİ-nin mərkəzi şəhərlərində təhsil alıb Bakıya qayıtmaları ilə yanaşı, doğma şəhəri tərk etmədən də sovet məkanında baş verən bədii proseslərdən xəbərdar olmaları o qədər də geniş olmayan rəssamlıq məkanında duyulası rəqabət yaratmışdı. Məşhur təhsil ocaqlarında oxuyub vətənə qayıdan istedadlı rəssamların sırasında Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Nadir Əbdürrəhmanov, Toğrul Nərimanbəyov, Vəcihə Səmədova və başqaları vardı. Sankt-Peterburqdakı ali təhsil ocaqlarında sənətin sirlərinə yiyələnmək əvəzinə, bu şəhərdəki Dövlət Ermitajında P.Sezann yaradıcılığını və Etnoqrafiya Muzeyində türk xalqlarının qədim mədəniyyətini dərindən öyrənən Mircavad Mircavadov isə Bakıya qayıdıb Abşeronun Buzovna kəndində kirayələdiyi bağ evində eksperimentlər aparmaqda, müxtəlif yaşlı əqidə dostları ilə milli mənəvi dəyərlərimizə söykənən yeni və fərqli sənət estetikasının sirlərini bölüşməkdə idi.







Amma onun məkana və zamana uyğun gəlməyən “yenilikləri”nin sorağı çox tezliklə bütün Bakıya, xüsusilə də ideoloji dairələrə yayılır. Həmin bağ evinin sahibi – ali məktəblərin birində Sovet İttifaqı Kommunist Partiyasının tarixi fənnini tədris edən professor da gənc rəssamın bədii axtarışlarını bir çoxları kimi “antisovet addım” sayaraq ondan bağı boşaltmağı xahiş edir. Beləliklə, rəssamın gərgin yaşantılarının üzərinə daha bir sıxıntı əlavə olunur. 37 yaşında Qobustana getməsi və oradakı qaya rəsmləri ilə tanışlığı, az sonra milli miniatürlərimizi dərk etməsi, mifologiya və xalq sənəti ənənələrini öyrənməsi onu bir rəssam kimi yetkinləşdirir. Onun simasında dünyaya orijinal baxışın mümkünlüyü başqalarına da yaradıcı impuls verir və 60-cı illər rəngkarlığımızda rəssamın qardaşı Tofiq Cavadovun, eləcə də Əşrəf Muradoğlunun, Qorxmaz Əfəndiyevin, Müslüm Abbasovun və sonralar yaradıcı mövqeyini dəyişən Rasim Babayevin sosialist ideologiyasına xidmət etməyən əsərləri yaranır. Nə etdiklərini bilən bu nonkonformist rəssamlar əslində o vaxtlar çəkdiklərinə görə təqdir olunacaqlarına heç ümid də bəsləmirdilər, amma özlərini bildikləri kimi ifadə etməkdəydilər...

Bu yazıda Mircavad Mircavadovun altmışıncı illərdə faciəvi şəkildə həlak olan kiçik qardaşı Tofiqin qısa, ancaq çox mənalı yaradıcılıq yoluna nəzər salacağıq.





Tofiq Cavadov (təhsil illərində Mircavadov familiyasını daşımışdır) ali təhsil almamış, təkcə “Əzimzadə məktəbi”ndə oxumaqla kifayətlənmişdi. Zamanında bu məktəbin az qala beynəlxalq nüfuz qazanmasını nəzərə alsaq, bəlkə də onun Rusiya təhsil ocaqlarına üz tutmasına, doğrudan da, ehtiyacı olmamışdı. Amma elə ilk əsərləri onun gerçəkliyə çox fərqli baxışa malik olduğunu təsdiqləmişdi.

Bununla belə, əllinci illərdə böyük qardaşı Mircavadın milli sənət məkanına gətirdiyi duyulası “gərginliyin” yeni çalarlarla zənginləşməsində Tofiqin az rolu olmamışdı. Bütün “izm”lərin başlanğıcı hesab olunan realizmi miniatür və milli maddi-mədəniyyət qaynaqları estetikası ilə yeniləşdirən gənc rəssamın az sonra T.Salahovun əsərlərində “sərt üslub” kimi tanınmasında da təkanverici rolu olmuşdu, desək, həqiqəti söyləmiş olarıq. Odur ki, bu yerdə deməliyik ki, sənət tarixində “sərt üslub”un yaranışı bilavasitə T.Salahovun adı ilə bağlansa da, əslində, bu yeni bədii baxışın estetikasında Tofiq Cavadovun əsərləri ilə səsləşən məqamların kifayət qədər qabarıq olduğunu etiraf etməliyik. Başqa sözlə desək, onu sonralar T.Salahova böyük şöhrət gətirəcək “sərt üslub”un ilk qaranquşu hesab etmək olar.

Doğrudan da, Tofiqin istər sənaye, istərsə də Abşeron mənzərələrində, eləcə də portret nümunələrində müşahidə olunan özünəməxsusluqda ənənə ilə müasirliyin cəlbedici və duyğulandırıcı vəhdətini görmək mümkündür. Ömrünün 38-ci ilində gözlənilməz bir halda fələyin ona qıymasına “alın yazısı” demək olardımı? Amma gözləri bir qədər zəif görən Tofiqin Moskva ətrafındakı stansiyalardan birindən tərpənməkdə olan elektrik qatarının vaqonlarının arasını qapı bilib özünü təkərlərin – ölümün qucağına atması onun gələcəyinə ümidli olan insanların arzularını gözündə qoydu...

Bununla belə, əminliklə demək olar ki, Tofiq Cavadov “Abşeronču”ların arasında ilk rəssam idi ki, çox qısa zaman kəsiyində dünyaya realist-gerçəkçi baxışın özünəməxsus estetikasını tapmış və sənətkar “mən”ini təsdiqləmişdi. Böyük qardaşının daha çox mücərrəd kompozisiyalar yaratdığı bir vaxtda Tofiq çoxlarına tükənmiş kimi görünən realizmi “təftiş” etməkdə, onun görünməyən qatlarında yeni bədii-estetik dəyərlər axtarmaqda idi.

Əlavə edək ki, o vaxtlar çox gənc olan rəssamın bunu qədim miniatür üslubundan faydalanmaqla gerçəkləşdirməsi çox diqqətçəkən idi. Miniatürdən gəlmə şərtiliyə və rəng şuxluğuna bir qədər də bədii lakoniklik bəxş edən gəncin, öz-özlüyündə Azərbaycan təsviri sənətinə yeni ifadə tərzi gətirməsi danılmaz idi. Bunu onun əllinci illərdə yaratdığı “Tofiqin portreti” (1955), “Operatorun portreti” (1958), “Avtoportret” (1958), “Növbədən gələnlər” (1959), “Külək” (1959), “Natürmort” (1959), “Buzovna” (1960) və s. əsərləri də təsdiqləyir...

Rəssamın bundan sonra cəmisi üç il davam edən altmışıncı illər yaradıcılığını da şərh etməli olsaq, onda həmin dövrün kifayət qədər məhsuldar və fərqli estetika ilə seçildiyini deməliyik.

Əgər bu əsərlərin timsalında Tofiq Cavadov dəst-xəttini dəyərləndirməli olsaq, ilk növbədə onun çoxlarına “qorxulu” görünən qara rəngə münasibətini qeyd etməliyik.

Rəssamın palitrasında qabarıq görünməyə başlayan qara rəngin müxtəlif formatlı və janr daşıyıcısı olan kətanlarda daha çox dramatikliyin ifadəçisinə çevrildiyi açıq görünməkdədir. Bu, əslində, Azərbaycan təsviri sənətində çoxlarının “çəkindiyi” – ehtiyatla istifadə etdiyi rəngə Əşrəf Murad tapınmasının, yüzilliyin son qərinəsində isə Qəyyur Yunus qayıdışının özünəməxsus estetika ilə təqdimatı idi. Bu cür bədii şərhdə məlum mütərəqqi “izm”lərə yaradıcı münasibətlə yanaşı, həm də miniatür və xalça təfəkkürünün bədii-fəlsəfi improvizələrlə təqdimatı idi. Odur ki, Tofiq Cavadov qarası həm də müəllif niyyətinin ona arzuladığı tutumda əyaniləşdirilməsinə yardımçı ola biləcək “işıq” idi. Başqa sözlə desək, həm də müxtəlif “izm”lərdən şirələnən bu “qara rəng”in işığı rəssam üçün nüfuzedici, seyrçi diqqətini ovsunlaya biləcək bədii vasitə idi. Rəssamın “Şamamalarla natürmort” (1960-1961), “Sənaye mənzərəsi” (1960), “Həvəngdəstə ilə natürmort” (1960-1963), “Lökbatan” (1961), “Çənlər” (1961), “Şəhər mənzərəsi” (1962), “Yatan uşaq” (1962-1963), “Külək” (1963) və s. əsərlərində vurğuladığımız məziyyətləri görmək mümkündür...



Həmin dövrü bir qədər də incələməli olsaq, onda zamanında islahatçı qardaşı Mircavad Mircavadovun nonkonformist mövqeyi – “sosialist realizmi” məkanına yeni nəfəs gətirmək istəyi gerçəkləşəndə, bununla paralel olaraq Azərbaycan bədii məkanı Tofiq Cavadov təxəyyülünün məhsulu olan özünəməxsus əsərlərlə zənginləşdiyini deməliyik. Bu dövrdə qardaşlarla yanaşı, onların xalası oğlu Rasim Babayev, Kamal Əhməd, Fərhad Xəlilov, Nazim Rəhmanov, Əlövsət Əliyev, Rafael Muradov, Mirnadir Zeynalov və başqaları əqidə birliyi nümayiş etdirməklə, əslində amansızlığını dəfələrlə sübut etmiş rejimə “ağ əlcək” atdıqlarını sərgiləmiş oldular. Qənaətimizcə, mahiyyətinə görə fransız “Barbizonçular”ından heç də geri qalmayan “Abşeronču”ların fəaliyyəti hamı üçün maraqlı görünə biləcək ekran əsərinin mövzusu ola bilərdi...

Sonda deyək ki, sovet dönəmində, özü də SSRİ-nin rəhbəri N.S.Xruşşovun 1962-ci ildə Moskva Rəssamlar İttifaqının 30 illiyinə həsr olunmuş “Yeni reallıq” qrupunun avanqard ruhlu sərgisinə sərt münasibətindən sonra əyalət kimi qəbul olunan Azərbaycanda müasir ruhlu, ən başlıcası isə “sosialist realizmi” bədii prinsipinə “Yox!” deyən yaradıcıların fəaliyyət göstərməsi və ümumi axının əksinə getməsi qeyri-adi cəsarət nümunəsi kimi qəbul olunmalıdır. Düzdür, o vaxtlar – Stalin repressiyası dövrünün artıq arxada qaldığı bir dövrdə əks fikirliləri yeni həbs dalğası gözləmirdi. Amma “dovşanı araba ilə tuta bilən” sovet rejimi ipə-sapa yatmayan “üsyankar sənətkarlar”a təsir etməyin başqa yollarını tapmışdı. Onlar çox vaxt bunun yeganə yolunu “nonkonformistlər”in çəkdiklərini sərgi salonlarına buraxmamaqda, Bədii Fonddan ala biləcəkləri sifarişlərdən – maddi dəstəkdən məhrum etməkdə görürdülər. Amma bu əqidə adamları, bütün qadağa və təpkilərə baxmayaraq, öz yollarından dönmədilər və son nəticədə bu gün, elə bundan sonralar da Azərbaycan rəssamlığına başucalığı gətirəcək bir bədii-ideoloji hadisənin yaradıcıları oldular. Bu gün – duyulası zaman distansiyasından əminliklə deyə bilərik ki, sovet dönəmində sənətini, əqidəsini qırmızı bayrağın tərənnümünə və maddiyyata təslim edənlərin çəkdikləri çoxdan tarixin heç vaxt axtarılmayacaq saxlancına gömülübdür. Əksinə, bu gün həm də “nonkonformistlər” kimi tanınan rəssamların zamanında “sandıq rəssamlığı” kimi dəyərləndirilən müxtəlif mövzulu – “qadağalı” əsərləri isə yerli muzey ekspozisiyalarını, xarici ölkələrin çox nüfuzlu şəxsi kolleksiyalarını bəzəməkdədir. Bu, əslində, həm də əsl sənətə sədaqətin uğurlu nəticəsidir...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

# Bakı Dövlət Sirkinin növbəti səyyar konserti

Ən yeni tariximizin şanlı səhifələrindən biri olan 2016-cı il Aprel döyüşlərinin 6-cı ildönümü münasibətilə Bakı Dövlət Sirkinin truppası Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionatda konsert proqramı ilə çıxış edib.



Bakı Dövlət Sirki orkestrinin müşayiəti ilə milli truppanın çıxışı maraqla qarşılanıb. Orkestrin repertuarında Azərbaycan və xarici musiqi nümunələrinin sintezinə üstünlük verilib.

Proqramda sirk sənətinin janrlarına aid olan bi-ri-birindən maraqlı nömrələr də yer alıb. Sonda sirk orkestrinin ifasında “Azərbaycan cəngisi”nin cazla sintezi səsləndirilib.

Bakı Dövlət Sirki xeyriyyə məqsədilə səyyar manejini müxtəlif məkanlarda, o cümlədən cəmiyyətin həssas təbəqələrinin qarşısında quraraq mütəmadi olaraq çıxışlar edir.

## Xatirə təqvimi — 5-8 aprel

### Azərbaycan

**5 aprel 1909** – Tanınmış bəstəkar Asəf Zeynalabdin oğlu Zeynallı (1909 – 27.10.1932) Şuşada doğulub. Musiqi tariximizdə yeni janrların yaradıcısı, simfonik, kamera-vokal və instrumental əsərlərin, uşaqlar üçün ilk musiqi əsərinin (“Uşaq süitası”) müəllifidir. Xalq mahnılarını nota köçürüb.

**5 aprel 1929** – Xalq artisti, tanınmış pianoçu Çingiz Hacı oğlu Sadıxov (1929 – 30.12.2017) Bakıda doğulub. Filarmoniyanın solisti kimi məşhur vokalçıları müşayiət edib. “Azkonsert”in bədii rəhbəri, Bakı Musiqi Akademiyasının professoru olub. 1994-cü ildən ABŞ-da yaşayıb və orada dünyasını dəyişib. Bakıda dəfn olunub.

**5 aprel 2021** – Xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseyn oğlu Hüseynov (14.11.1944 – 2021) vəfat edib.

**6 aprel 1935** – Əməkdar mədəniyyət işçisi, aşıq Şərbət Fətiyev (1935-2016) Şamaxıda doğulub.

**6 aprel 1939** – Xalq artisti, kinorejissor, ssenarist, yazıçı, professor Tofiq Hüseyn oğlu İsmayılov (1939 – 25.3.2016) Bakıda anadan olub. Filmləri: “Gilas ağacı”, “Mən mahnı qoşuram”, “Musiqi müəllimi”, “Əzablı yollar”, “Vulkana doğru”, “Oxuyur Müslüm Maqomayev” və s.

**6 aprel 2021** – Əməkdar incəsənət xadimi, tarzən, Azərbaycan Milli Konservatoriyasının professoru Oqtay Süleyman oğlu Quliyev (22.9.1938 – 2021) vəfat edib.

**6 aprel 2021** – Əməkdar mədəniyyət işçisi, teatr xadimi Həsən Nəsib oğlu Həsənov (7.7.1950 – 2021) vəfat edib.

**7 aprel 1906** – Azərbaycanın ilk satirik nəşri olan “Molla Nəsrəddin” jurnalının birinci sayı çapdan çıxıb. Böyük ədib Cəlil Məmmədquluzadənin redaktoru olduğu jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Jurnalda Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Əzimzadə və başqaları fəaliyyət göstərirdilər.

**7 aprel 1930** – Tanınmış jurnalist, mədəniyyət xadimi Azad Ağakərim oğlu Şərifov (1930 – 24.12.2009) anadan olub. Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsinin sədri, “Azərinform”un (indiki AZƏRTAC) direktoru işləyib.

**8 aprel 1888** – Dövlət xadimi, publisist Dadaş Xoca oğlu Bünyadzadə (1888-1938) Bakının Fatmayı kəndində doğulub. 1920-1922-ci illərdə Azərbaycan SSR-in maarif komissarı, 1930–1932-ci illərdə respublika hökumətinin başçısı (Xalq Komissarları Sovetinin sədri) olub. Repressiya qurbanıdır.

**8 aprel 1956** – Əməkdar artist, tanınmış müğənni, bəstəkar Yaqub Zurufçu (1956 – 14.9.2021) Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olub.

**8 aprel 2021** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Məhərrəm Əlisəftər oğlu Bədirzadə (13.1.1945 – 2021) vəfat edib.

### Dünya

**5 aprel 1588** – İngilis filosofu Tomas Hobbs (Thomas Hobbes; 1588-1679) anadan olub.

**5 aprel 1900** – Amerika aktyoru, “Oskar” mükafatçısı Spenser Treysi (Spencer Tracy; 1900-1967) anadan olub.

**5 aprel 1945** – Türk bəstəkarı və müğənnisi, türk rok musiqisinin yaradıcılarından biri Cem (Muxtar) Karaca (1945 – 8.2.2004) anadan olub.

**6 aprel 1826** – Fransız rəssamı, simvolizmin nümayəndəsi Qustav Moro (Gustave Moreau; 1826-1898) anadan olub. Əsərləri: “Edip və Sfinks”, “Yupiter” və s.

**6 aprel 1929** – Alman əsilli Amerika bəstəkarı və dirijoru Andre Previn (Andreas Ludwig Priwin; 1929-2019) anadan olub. Film musiqilərinə görə 4 dəfə “Oskar” mükafatı qazanıb.

**7 aprel 1883** – İtaliya rəssamı və heykəltəraşı, futurizm cərəyanının banilərindən biri Cino Severini (1883-1966) anadan olub.

**7 aprel 1889** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1945) laureatı Qabriela Mistral (Gabriela Mistral – əsl adı Lucila Godoy Alcayaga; 1889-1957) anadan olub.

**8 aprel 1692** – İtaliya bəstəkarı Cüzeppe Tartini (1692-1770) anadan olub. “Şeytan sonatası” (“Sonate du diable”) ilə məşhurluq qazanıb.

**8 aprel 1859** – Alman filosofu, fenomenologiyanın banisi Edmund Husserl (1859-1938) anadan olub.

**8 aprel 1973** – Dünya şöhrətli ispan rəssamı, heykəltəraş Pablo Pikasso (Pablo Ruiz Picasso; 25.10.1881 – 1973) vəfat edib. Kubizm cərəyanının banilərindən biridir. Məşhur əsərləri: “Avinyonlu qızlar”, “Gernika”.

**Hazırladı: Vüqar Orxan**

# Azərbaycan bəstəkarlıq məktəbində Fikrət Əmirov fenomeni

Dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi bu il silsilə tədbirlərlə qeyd ediləcək. “İrsimizin Tədqiqi və Təbliği” İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına həyata keçirdiyi layihə də Fikrət Əmirovun 100 illiyinə həsr olunub.




Martın 30-da layihə çərçivəsində növbəti tədbir – ictimai birlik və Azərbaycan Milli Konservatoriyasının (AMK) birgə təşkilatçılığı ilə “Azərbaycan bəstəkarlıq məktəbində Fikrət Əmirov fenomeni” mövzusunda elmi konfrans keçirildi.

Konfransı AMK-nın rektoru, Xalq artisti, professor Siyavuş Kərimi açaraq bəstəkar Fikrət Əmirov haqda öz ürək sözlərini, xatirələrini söylədi. Rektor konfransın mövzusuna diqqət çəkərək təqdim olunacaq məruzələrin dahi bəstəkarın zəngin yaradıcılığının dolğun təhlilinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Konfransda Əməkdar incəsənət xadimi, professor, AMK-nın elmi işlər üzrə prorektoru Lalə Hüseynova “Azərbaycan bəstəkarlıq məktəbində Fikrət Əmirov fenomeni” mövzusunda çıxış etdi. Onun Fikrət Əmirovun musiqi irsinə nəzər salan məruzəsində arxiv materiallarına əsaslanan bir çox maraqlı məlumatlar diqqətə çatdırıldı.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova “Fikrət Əmirov və xalq musiqisi”, sənətşünaslıq üzrə fəlsəfə doktoru Cəmilə Mirzəyeva “Fikrət Əmirov yaradıcılığında romantizm cərəyanının xüsusiyyətləri”, sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Quliyeva “Fikrət Əmirov və klassik Azərbaycan poeziyası”, sənətşünaslıq üzrə fəlsəfə doktoru, “İrsimizin Tədqiqi və Təbliği” İctimai Birliyinin təsisçisi, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı “Fikrət Əmirov yaradıcılığının təbliği məsələləri” mövzularında çıxışlar etdilər.

Konfransda Fikrət Əmirovun əsərlərindən nümunələr də səsləndirildi. Bəstəkarın “Sevil” operasından Sevilin ariyası, “Azərbaycan elləri”, “Gülüm” mahnıları Əməkdar artistlər Zemfira İsmayılova və Anar Şuşalının, “Kor ərəbin mahnısı” AMK-nın IV kurs tələbəsi Mirəli Sarızadənin ifasında alqışlarla qarşılandı. İfaları fortepianoda Əməkdar müəllim Naibə Şahməmmədova müşayiət edirdi.

**Fidan Nəsirova**

# Vyanada "Salam. Orient"

## Festival çərçivəsində muğam konserti təqdim olunub






Aprelin 2-də Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Salam. Orient" festivalı çərçivəsində Azərbaycan muğamlarından ibarət instrumental konsert proqramı təqdim edilib. Konsertdə Əməkdar artist, tarzən Sahib Paşazadə, Əməkdar artist, nağara ifaçısı Kamran Kərimov və gənc balaban ifaçısı Azad Əliməmmədov çıxış ediblər.

Konsertdən öncə AMM-in rəhbəri Leyla Qasımova çıxış edərək Avstriyada Azərbaycan mədəniyyətinin təbliği məqsədilə müxtəlif qurumlarla səmərəli işbirliyini diqqətə çatdırıb. O, "Salam. Orient" və "Kulteurasia" təşkilatı ilə bir neçə ildir sürən əməkdaşlığı xüsusi vurğulayıb və Azərbaycan muğamının belə bir platforma çərçivəsində təqdimatından məmnunluğunu ifadə edib.

"Salam. Orient" festivalının rəhbəri Katrin Pröll və "Kulteurasia" təşkilatının rəhbəri Daniela Libervirt uğurlu əməkdaşlığa görə AMM-yə təşəkkür ediblər. D.Libervirt tədbir iştirakçılarına Azərbaycan haqqında ümumi məlumat verib, Azərbaycan muğamları, muğam sənəti və milli çalğı alətlərindən bəhs edib. Bildirilib ki, nüfuzlu "Şərq tərənələri" festivalında (Özbəkistan) Qran-pri mükafatına layiq görülən S.Paşazadə və K.Kərimov birgə proqramla mütəmadi olaraq xarici ölkələrə qastrol səfərlərinə çıxır, festivallara qatılırlar. Avstriyalı muğamsevərlərə də onların ifası yaxşı tanışdır və qrup öz proqramına daha bir Azərbaycan milli musiqi aləti olan balabanı əlavə edib.

Konsert "Bayatı-Şiraz" muğamı üzərində kompozisiya ilə başlayıb. Kompozisiyaya daxil edilmiş xalq mahnıları, eləcə də tar, nağara və balabanın ifasında fərqli solo ifalar tamaşaçılar tərəfindən maraqla dinlənilib. Konsertdə "Mahur-hindi" muğam dəsgahı, "Sarı gəlin" xalq mahnısı və "Şur" muğamı üzərində kompozisiya sürəkli alqışlarla qarşılanıb. Konsertin zirvə nöqtəsini isə "Qarabağ" mahnısı təşkil edib.

Tamaşaçıların xahişi ilə musiqiçilər proqramda nəzərdə tutulmayan əlavə musiqi nömrələri ifa ediblər.

Qeyd edək ki, instrumental qrup aprelin 4-də Avstriyanın Lints şəhərində daha bir konsert proqramı ilə çıxış edib.

# Bakıda Braziliya Film Festivalı başa çatdı







Xəbər verdiyimiz kimi, martın 30-dan aprelin 3-dək Nizami Kino Mərkəzində Braziliya filmlərinin festivalı keçirildi.

Azərbaycan Mədəniyyət Nazirliyi və Braziliya Federativ Respublikasının ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə reallaşan festivalın proqramına 4 bədii, 1 sənədli film daxil edilmişdi.

Biz də festival haqqında ətraflı məlumat almaq məqsədilə Nizami Kino Mərkəzində olduq. Mərkəzin direktoru Leyli Mirzəyeva qəzetimizə bildirdi ki, festivalın ilk günündə kinoseverlər "Qalib gəlmək üçün 10 saniyə" filmini izləyiblər. Ekran əsəri ötən əsrin 60-70-ci illərində iki ayrı çəkidə ikiqat dünya çempionu olmuş, indi də bütün dövrlərin ən yaxşı 10 döyüşçüsündən biri hesab edilən braziliyalı boksçu Eder Jofrenin bioqrafiyasından bəhs edir. Ailə həyatına zaman ayırmaq çətin olduğu üçün idman həyatından yorulan Eder ilk titulunu qazandıqdan sonra boksu tərk edir. Ancaq o, sonradan gücünü toplayaraq öz peşəsinə müzəffər şəkildə geri dönür...

"Hebe – Braziliyanın ulduzu" filmi bu ölkədə televiziyanın simvoluna çevrilən aparıcı Hebe Kamarqoya həsr olunub. 80-ci illərdə, hərbi diktaturadan demokratik rejimə keçid zamanında 60 yaşlı Hebe müstəqil televiziya karyerasına başlamağa qərar verir. Kişi şovinizminə, qısqanc ərinə və narazı keçmiş nüfuzlu rəislərinə rəğmən o, bütün maneələrə rəğmən işinin öhdəsindən gələrək qeyri-adi aparıcı kimi tanınır.

"Hər kəsə xatirə üçün hədiyyə et – Dorival Kaimmi" filmi haqqında söhbət açan Leyli Mirzəyeva dedi ki, ekran işində göstərilir ki, 94 illik həyatında Dorival Kaimmi hətta uzaqda olsa belə, doğma Bahia üçün oxuyur, yazır və bəstələyir. O və Jorje Amado Bahia barədə təxəyyüllərin səbəbkarı hesab olunurlar. Tanış olduğu, sevdiyi insanlar və professionallar onun həyatını və Braziliya mədəniyyətini simvolu olduğunu xatırlayırlar.

"Simonal" filmi müğənni Vilson Simonal haqqındadır. O, Braziliya musiqi tarixinin ən böyük səslərindən hesab edilir. Kasıblıqdan ümumxalq şöhrətinə kimi qət etdiyi parlaq yol onun 70-ci illərdəki ekstravaqant həyatının Braziliya hərbi diktaturasının xüsusi xidmətlərinin diqqətini cəlb etməsinə səbəb olur.

"Sevgi haqqında bütün mahnılar" filminin hekayəsi isə belədir: Anna və Şiko cütlüyü San-Pauloya köçüb yeni evlərində əşyaları yerbəyer edərkən köhnə audiokaset tapırlar. Bunun 20 il əvvəl Klarissanın öz həyat yoldaşı Danielə yazdığı mahnılar olduğu bəlli olur. Zamandakı fərqə baxmayaraq hər iki ailədə ümumi olan bir çox şey aydınlaşır. Musiqi sayəsində onların hekayələri bir-birinə qarışır.

Festivalın kuratoru Fernando Bulhoes bizimlə söhbətində bildirdi ki, layihənin təşkilində əsas məqsəd Braziliya mədəniyyətini daha geniş coğrafiyada tanıtdırmaqdır: "Müxtəlif incəsənət növləri bizlərə bir-birimizin mədəniyyətini daha yaxşı tanımağa kömək edir. Mənə görə, mədəniyyətimizi, adət-ənənələrimizi tanıtmaq üçün ən gözəl üsullardan biri məhz kinodur. Braziliya Film Festivalı Azərbaycanda ilk dəfədir keçirilir. Ancaq niyyətimiz odur ki, festival ənənəvi formada hər il gerçəkləşsin".

Ölkəsindən filmlərin Azərbaycanda nümayiş ideyasından danışan kurator dedi ki, illər öncə bu təkliflə Braziliyanın Xarici İşlər Nazirliyinə müraciət edib: "Onların dəstəyi ilə artıq 15 ilə yaxındır ki, Rusiya, Portuqaliya, Çin, İtaliya və digər ölkələrdə festivallar keçirilib. Onu da deyim ki, festivalda nümayiş etdirilən filmlər müxtəlif kateqoriyalara görə seçilib. Festivala ən yeni, ölkə daxilində və dünya üzrə daha çox mükafata layiq görülən filmlər daxil edilib".

Qeyd edək ki, Braziliya Film Festivalı Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə təşkil olunub.

**Nurəddin Məmmədli**

# "Vulkan üzərində ev"də həyat...

## Sənədli filmin çəkilişləri yekunlaşıb

Kinorejissor Amil Amalın "Vulkan üzərində ev" qısametrajlı sənədli filminin çəkilişləri başa çatıb. Film Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) maliyyə dəstəyi ilə ərsəyə gəlib.

İttifaqdan bildirilib ki, ekran işinin qəhrəmanı paytaxtın Binəqədi qəsəbəsində, aktiv olan Keyrəki vulkanı yaxınlığında yaşayan Aqibət xanımdır. Rejissor uzun müddət 55 yaşlı xanımın həyatını müşahidə edib və film çəkmək qərarına gəlib. Hazırda film post-prodakşn mərhələsindədir.

Amil Amal 1989-cu ildə Laçın şəhərində anadan olub. 2007-2011-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rejissorluq fakültəsində, 2013-2015-ci illərdə isə dövlət hesabına Moskvada Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin (VQİK) kinorejissorluq və kinodramaturgiya ixtisası üzrə ikiillik ali kurslarda təhsil alıb. Sənətin sirlərini ssenarist, rejissor Denis Rodimin və rejissor, pedaqoq Vladimir Fençenkonun emalatxanasında öyrənib.

Rejissorun "Qara bağ" filmi "Azərbaycan ailəsi" film festivalında (2015), "Birinci Asiya Beynəlxalq Qısametrajlı Filmlər Festivalı"nda (2016), "Haqq iş" qısa film festivalında (Türkiyə, 2017), Bakı Beynəlxalq Qısa Film Festivalında (2019) mükafatlara layiq görülüb. Müəllifin "Titrəmə" filmi isə ötən il Türkiyədə keçirilən 9-cu Beynəlxalq İpək Yolu Film Festivalında "Ən yaxşı qısametrajlı film" nominasiyasında qalib olub.

**Lalə**

# Omanlı turistlər Hüseyn Cavidin Ev-Muzeyində



Oman Sultanlığının əş-Şərkiyyə vilayətinin Dammam şəhərindən gəlmiş turistlər AMEA Hüseyn Cavidin Ev-Muzeyinin qonağı olublar.

Muzeyin ekspozisiya zalları ilə tanış olan qonaqlara dahi Azərbaycan şairinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib, onun səhnə əsərlərində qaldırılan bəşəri problemlərin bu gün də aktual olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Hüseyn Cavid irsi, dünyanın bir sıra ölkələrinin aparıcı elm və tədris müəssisələrində olduğu kimi, Omanın Sultan Qabus Universitetində də tədqiq olunub.

Omanlı rəssam Lena Salman ölkəmizin təsviri sənəti haqqında çox oxuduğunu və qonağı olduğu muzeyin ekspozisiyası arasında yer alan görkəmli Azərbaycan rəssamları və heykəltəraşlarının əl işlərinin onda yüksək təəssürat oyatdığını bildirib. Onun həyat yoldaşı geoloq Mohammed əl-Nəmər də muzeyə ekskursiyadan məmnun qaldığını söyləyib.

Qonaqlar muzeyin rəy kitabına ürək sözlərini yazıb, xatirə şəkli çəkdiriblər. Onlara muzeyin nəşr etdirdiyi "Cavid hikməti: seçmə aforizmlər" kitabı hədiyyə olunub.

# "Qremmi" mükafatının qalibləri elan edilib




64-cü "Qremmi" mükafatının qalibləri aprelin 3-də ABŞ-ın Las-Veqas şəhərindəki "MGM Grand Garden Arena"da keçirilən mərasimdə elan edilib. Ötən il pandemiya səbəbindən onlayn formatda gerçəkləşən təqdimat bu dəfə ənənəvi formatda reallaşıb. Xatırladaq ki, daha öncə yanvarın 31-də Los-Ancelesdə keçirilməsi nəzərdə tutulan mərasim ABŞ-da koronavirusun "omikron" ştammının sürətlə yayılmasına görə ertələnmişdi.

64-cü "Qremmi" mükafatının "İlin ən yaxşı mahnısı" nominasiyası üzrə qalibi "Silk Sonic" (Bruno Mars və Anderson Paak) qrupunun "Leave The Door Open" hiti seçilib. Qrup bu nominasiyada Ed Şiran, Alişa Keys, Olivia Rodriqo, Billi Ayliş, Castin Biber, Brendi Karlayl kimi ifaçıları qabaqlayıb.

Olivia Rodriqo müsabiqənin "ən yaxşı yeni ifaçısı" seçilib. İlin albomu Con Batistin "We Are" albomu olub.

"Ən yaxşı pop albom" mükafatına Ledi Qaqa və Toni Bennetin "Love for Sale", mahnısı layiq görülüb.

Amerika rok qrupu "Foo Fighters" üç nominasiyada – "Medicine at Midnight" mahnısına görə "Ən yaxşı rok albomu", "Waiting On a War" mahnısına görə "Ən yaxşı rok mahnısı" və "Making a Fire" mahnısına görə "Ən yaxşı rok ifası" nominasiyalarında "Qremmi" mükafatlarını qazanıb. Lakin "Foo Fighters"in zərb ifaçısı Taylor Hokinsin martın sonunda Cənubi Amerika turnesi zamanı vəfat etdiyi üçün qrupun üzvləri mükafatlandırma mərasiminə qatılmayıblar.

"Qremmi" musiqi dünyasının ən nüfuzlu müsabiqəsi sayılır. Mükafat 1958-ci ildə Amerika Səsyazma Şirkətləri Assosiasiyası tərəfindən təsis edilib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 208 il əvvəl...

**6 aprel 1814-cü ildə** müttəfiq qoşunlarının (Rusiya, Prussiya, Avstriya və Britaniya) Parisə daxil olması ilə Napoleon Bonapart taxt-tacdan əl çəkib. Müttəfiqlər Napoleonun imperator titulunu (formal olaraq) saxlamaqla, habelə illik maddi təminat və mühafizə ayırmaqla onu Elba adasına (Aralıq dənizində) sürgün etdilər.

### 126 il əvvəl...

**6 aprel 1896-cı ildə** Yunanıstanın paytaxtı Afinada ilk Yay Olimpiya Oyunları başlanıb. Baron Pyer de Kubertenin təşəbbüsü ilə başlanan Olimpiya hərəkatı müasir dünyanın ən əlamətdar hadisələrindən biridir.

### 102 il əvvəl...



**7 aprel 1920-ci ildə** Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan başlanıb. Bu, 1905-1911-ci illər inqilabından sonra İranda yaşayan azərbaycanlıların ikinci milli azadlıq hərəkatı idi. Təbrizdə kütləvi çıxışlar 1919-cu ilin avqustunda Britaniya-İran sazişinə etiraz olaraq başlamışdı. Həmin sazişə əsasən, Cənubi Azərbaycandakı ingilis hərbi qüvvələrinə geniş hökmranlıq verilmişdi. Üsyanın nəticəsi olaraq həmin ilin iyununda Təbrizdə milli hökumət quruldu. Lakin milli hökumətin ömrü az oldu və o, sentyabrda Xiyabaninin qətlə yetirilməsi ilə süqut etdi.

### 93 il əvvəl...

**8 aprel 1929-cu ildə** VI Ümumazərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycanda yeni ərazi-inzibati vahidlər – dairələr yaranıb. Respublika ərazisi (Dağlıq Qarabağ Muxtar Vilayəti və Naxçıvan MSSR istisna olmaqla) Bakı, Quba, Lənkəran, Şirvan, Gəncə, Qarabağ, Zaqatala-Nuxa və Muğan dairələrinə bölünüb. Bundan öncə, 1921-ci ildə Azərbaycan SSR-də ərazi-inzibati bölgüsü olaraq 17 qəza (Bakı, Gəncə, Ağdaş, Göyçay, Cəbrayıl-Qaryagin, Tovuz, Qazax, Zaqatala, Quba, Lənkəran, Nuxa, Salyan, Şuşa, Şamaxı, Şamxor, Qubadlı, Zəngəzur) təşkil olunmuşdu.

### 82 il əvvəl...

**8 aprel 1940-cı ildə** NKVD-nin (SSRİ Daxili İşlər Xalq Komissarlığı) qərarı ilə Smolensk yaxınlığındakı Katın meşəsində repressiya olunmuş 4 minə yaxın polyak əsilli zabit güllələnib. Repressiyanın səbəbi kimi onların antisovet qiyamına hazırlaşdığı göstərilirdi. SSRİ Katın faciəsinə görə M.Qorbaçovun dövründə Polşadan üzr istədi.

### 77 il əvvəl...

**5 aprel 1945-ci ildə** Yalta konfransının (SSRİ, Böyük Britaniya, ABŞ) öhdəliyinə əsasən, SSRİ Yaponiya ilə neytrallıq haqqında müqaviləni (1941-ci il aprelin 13-də imzalanmışdı) qüvvədən salaraq ona müharibə elan edib. Alman faşizminin süqut etdiyi bir vaxtda Uzaq Şərqdə təhdid doğuran Yaponiyanın öhdəsindən gəlmək SSRİ-nin üzərinə qoyulmuşdu.

### 76 il əvvəl...

**7 aprel 1946-cı ildə** Dünya Səhiyyə Təşkilatı fəaliyyətə başlayıb. BMT-nin üzvü olan 26 dövlət təşkilatın nizamnaməsini ratifikasiya edib və sənəd qüvvəyə minib. 7 aprel Dünya Səhiyyə Günü kimi qeyd olunur.

### 54 il əvvəl...



**5 aprel 1968-ci ildə** Çexoslovakiyada "Praqa baharı" başlanıb. Ölkənin kommunist rəhbərliyi liberal və demokratik siyasət proqramı qəbul edib. Lakin Moskva bu kursu kommunizm platformasından uzaqlaşmaq kimi qiymətləndirdi və Çexoslovakiyaya hərbi qüvvə yeridildi.

### 30 il əvvəl...

**7 aprel 1992-ci ildə** Azərbaycan Respublikası və İsrail Dövləti arasında diplomatik münasibətlər qurulub. İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdı.

**8 aprel 1992-ci ildə** Ermənistan silahlı dəstələri Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum edərək kütləvi qırğın törədiblər. 130 evdən ibarət kənd yandırılıb, kəndin 39 sakini (o cümlədən 8 qoca, 2 uşaq, 9 qadın) qətlə yetirilib.

### 29 il əvvəl...

**5 aprel 1993-cü ildə** Azərbaycan Respublikası ilə Malayziya arasında diplomatik əlaqələr qurulub. Malayziya ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıyıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 965
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641